Azərbaycan İlahiyyat İnstitutu

# Bülleten

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 6
iyul-dekabr
2022

## “MÜASİR ÇAĞIRIŞLAR KONTEKSTİNDƏ MDB ÖLKƏLƏRİNDƏ İSLAMŞÜNASLIQ” MÖVZUSUNDA BEYNƏLXALQ FORUM KEÇİRİLİB

səh.40-43





## ULU ÖNDƏRİN ANIM GÜNÜ TƏDBİRİ

səh.39



## İlahiyyat İnstitutunda ilk Məzun Günü

səh.6-7



## Cenevrə Mənəvi Xidmət Dərnəyinin vitse-prezidenti AİI-də

səh.36



## Beynəlxalq simpozium keçirilib

səh.15-20



## Tərəfdaşlıq memorandumu imzalanıb

səh.45



## İlahiyyat İnstitutu və Yozqat Bozok Universiteti arasında Əməkdaşlıq Protokolu imzalanıb

səh.12



## Rektor İsveçrə Konfederasiyasında beynəlxalq simpoziumda

səh.26-28

## Şəhid Vüqar Məmmədovun Anım Günü - 7 oktyabr 2022

səh.23



## Zəfər Günü tədbiri

səh.31-32

# Milli Qurtuluş Gününə həsr olunmuş tədbir

Azərbaycan İlahiyyat İnstitutunda 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş tədbir keçirilib. Tədbirdə AİI-nin rektoru, rəhbər heyəti və müəllimlər iştirak ediblər.

İnstitutun rəhbəri Aqil Şirinov tədbir iştirakçılarını salamladıqdan sonra, Qurtuluş Gününün Azərbaycan tarixində önəmini vurğulayıb, həmçinin Heydər Əliyevin hakimiyyətə gəlişi ilə yeni dövlətçilik ənənələrinin təməlinin qoyulduğunu qeyd edib.

AİI rektoru Heydər Əliyevin dövlət quruculuğu istiqamətində göstərdiyi xidmətlərdən bəhs edərək, Ulu Öndərin apardığı uğurlu iqtisadi islahatlar və ordu quruculuğu sahəsindəki əməli fəaliyyəti nəticəsində 44 günlük Vətən müharibəsində qalibiyyətimizin əsasının qoyulduğunu nəzərə çatdırıb.

Ali təhsil müəssisəsinin rəhbəri daha sonra əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət-din münasibətlərinin tənzimlənməsi istiqamətində aparılan işlər, ölkəmizin inkişafında, milli-mənəvi dəyərlərin zənginləşdirilməsində, dövlət müstəqilliyinin və təhlükəsizliyinin qorunmasında həyata keçirilən siyasət haqqında da məlumat verib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyyad Salahlı tədbir iştirakçılarını salamladıqdan sonra, Ulu Öndərin fəaliyyətlərinin birbaşa şahidi kimi çıxış etməyin məmnunluğunu ifadə edib. Milli Qurtuluş Gününün Azərbaycan tarixinin parlaq səhifələrindən olduğunu qeyd edərək, həmin dövrlə bağlı baş verənlərə diqqət çəkib. Azərbaycanın dünya ölkələri arasında layiqli yer tutmasında, xalqımızın xoşbəxt və firavan yaşamasında Heydər Əliyevin əvəzsiz xidmətlərini vurğulayan Səyyad Salahlı hazırda təməli dərin özüllərlə qoyulan dövlətçilik ideyalarının İlham Əliyev tərəfindən layiqincə davam etdirildiyini vurğulayıb. Heydər Əliyevin ordu quruculuğu sahəsində göstərdiyi xidmətlərin nəticəsi olaraq, 44 günlük müharibədə qalibiyyətimizə toxunan Səyyad Salahlı həmin dövrdə şahidi olduğu hadisələrdən ətraflı bəhs edib.

# Məzunların diplom müdafiəsi

Azərbaycan İlahiyyat İnstitutunun "Dinşünaslıq" ixtisası üzrə təhsil alan D-1801 və D-1802 qrup tələbələrinin 20 iyun 2022-ci il tarixində buraxılış işlərinin müdafiəsi keçirilib.

AİI Yekun Dövlət Attestasiya Komissiyasının sədri Bakı Dövlət Universiteti Şərqşünaslıq fakültəsi Ərəb filologiyası kafedrasının professoru Nəsrulla Məmmədov çıxış edərək, məzunlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Alim bundan sonra da gənclərin elmi-tədqiqatlar aparmalarını, qazandıqları bilikləri həyatda uğurla reallaşdırmalarını, ölkəmiz üçün dəyərli vətəndaş, bacarıqlı mütəxəssis olmalarını tövsiyə edib.

Daha sonra AİI-nin IV kurs tələbələri "Abbasilər dövründə dünyəvi elmlərin təşəkkülü", "Quran və İncildə Həzrət İsa və Xristianlıq", "Müstəqillikdən sonra Azərbaycanda din təhsili: dövlət-din münasibətləri müstəvisində", "Müstəqillikdən sonra Azərbaycanda din təhsili: dövlət-din münasibətləri müstəvisində" "Əndəlüsdə dünyəvi elmlər", "İslamda Mehdilik inancı", "Dini radikalizmin sosioloji səbəbləri", "Farabinin əxlaq, siyasət və xoşbəxlik təsəvvürü: əlaqələndirici baxış", "Psixi sağlamlıq və din" , "Musa Peyğəmbərin Yəhudilikdə rolu", "Yeniyetməlik dövründə dini inkişaf", "Uşaqlıq dövründə dini inkişaf İlkin dövr", "İslam məzhəblərinin yaranmasına təsir edən ictimai-siyasi amillər", "Azərbaycanda dövlət-din münasibətləri: mənəvi-əxlaqi müstəvidə", "Yəhudilik inanc əsasları və əxlaq sistemi" mövzularında buraxılış işlərini müdafiə ediblər.

Tələbələr dissertasiya işləri ilə bağlı Şura üzvlərinin suallarını cavablandırıblar.

İnstitutun müəllimləri, dekan və kafedra müdirlərinin iştirak etdikləri müdafiədə müzakirələr aparılıb. Şura üzvləri çıxış edərək, sual və tövsiyələrini səsləndiriblər.

"Dinşünaslıq" ixtisası üzrə təhsil alan D-1801 və D-1802 qrup tələbələrinin buraxılış işlərinin yekun nəticələri qənaətbəxş hesab edilib.

Azərbaycan İlahiyyat İnstitutu Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub saxlanılması, inkişafı və dini fəaliyyətin təşkili sahəsində yüksəkixtisaslı kadrların hazırlanmasının təmin olunması məqsədilə müasir təhsil standartları və dünya təcrübəsi əsasında təsis edilmiş ali təhsil müəssisəsidir.



# Seminar keçirilib

İlahiyyat İnstitutunda Mənəvi Dəyərlərin Təbliği Fondunun dəstəyi ilə 21 iyun 2022-ci il tarixində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Ukraynadakı nümayəndəsi Marina Qonçarukla görüş keçirilib.

Tədbirdə İnstitutun müəllimləri və əməkdaşları iştirak ediblər.

Öncə Tədris şöbəsinin müdiri Zərifə Əliyeva görüş iştirakçılarını salamlayıb. Daha sonra İnstitutun qarşısında duran prioritet məsələlərə toxunan Z.Əliyeva Aİİ əməkdaşlarının və tələbələrin maarifləndirilməsi istiqamətində görülən işlər haqqında məlumat verib.

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov çıxış edərək, Azərbaycan–Ukrayna münasibətlərinə toxunub, bu əlaqələrin tariximizə və ədəbiyyatımıza təsirini qeyd edib. M.Qonçarukun 44 günlük Vətən müharibəsində sosial şəbəkələrdə Azərbaycana dəstək verdiyini vurğulayıb.

Marina Qonçaruk "Azərbaycan ədəbiyyatı nümunələrinin Ukrayna dilinə tərcüməsində Azərbaycan dəyərlərinin təbliği" mövzusunda təqdimatla çıxış edib.

Məruzəçi Azərbaycan ədəbiyyat nümunələrinin Ukrayna dilinə tərcüməsi, həmçinin onun tarixi barədə ətraflı məlumat verib. Qeyd edib ki, Azərbaycan ədəbiyyat nümunələrinin Ukrayna dilinə tərcüməsində əməyi keçən insanlar Ukrayna dövlətinin qurulmasında xidmətlər göstərmiş şəxslər olublar.

M.Qonçaruk Azərbaycan ədəbiyyatını Ukrayna dilinə tərcümə edənlər barədə ayrı-ayrılıqda məlumat verərək, hər biri haqqında ətraflı danışıb. Onların təhsili, Azərbaycan dili və tarixi ilə bağlı təhsil almaları barədə məlumatları diqqətə çatdırıb.

Tədbir iştirakçıların qarşılıqlı müzakirəsi ilə davam edib.



# İctimai Nəzarət Şurasının üzvləri İlahiyyat İnstitutunda



Azərbaycan İlahiyyat İnstitutunun rəhbərliyi yanında İctimai Nəzarət Şurasının üzvləri 22 iyun 2022-ci il tarixində yaz semestri yay imtahan sessiyasının gedişatını izləyiblər, eyni zamanda, ali təhsil müəssisəsinin yeni binası ilə tanış olublar.

İctimai Nəzarət Şurasının üzvləri imtahan keçirilən auditoriyalarda olub, ayrı-ayrı fənlər üzrə yay imtahan sessiyasını müşahidə ediblər. Şura üzvləri, həmçinin tələbələrin sessiyaya hazırlıqları, sualların tərtibatı, imtahan prosesi barədə müəyyən söhbətlər aparıblar.

İctimai Nəzarət Şurasının əsas məqsədi Aİİ-nin fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsi, institut ilə ictimaiyyət arasında səmərəli qarşılıqlı əlaqələrin təşkili, aşkarlığın və şəffaflığın təmin olunması, əməkdaşların və təhsil alanların hüquqlarının müdafiəsi və fəaliyyətlərinin təkmilləşdirilməsi üçün təkliflərin verilməsindən ibarətdir.

Məlumat üçün bildiririk ki, Şuranın tərkibinə millət vəkili Arzu Nağıyev, Konstitusiya Araşdırmaları Fondunun rəhbəri, İnsan Haqları Birgə Qrupun üzvü Əliməmməd Nuriyev, təhsil üzrə ekspert, professor Şahlar Əsgərov, təhsil üzrə ekspert Nadir İsrafilov, "İki sahil" qəzetinin Baş redaktoru Vüqar Rəhimzadə, İctimai Televiziya və Radio Yayımları Şirkətinin İctimai-siyasi proqramlar departamentinin direktoru Anar Yusifoğlu, Modern.az saytının rəhbəri Elşad Eyvazlı, "525-ci qəzet"in müxbiri Sevinc Qarayeva daxildirlər.

# İmtahan sessiyası başa çatıb











Azərbaycan İlahiyyat İnstitutunda 2021/2022-ci tədris ilinin bakalavriat və magistratura səviyyələri üzrə yaz semestrinin yay imtahan sessiyası 28 iyun 2022-ci il tarixdə sona çatıb. Dörd həftə davam edən sessiya təsdiq edilmiş imtahan cədvəlinə uyğun olaraq, əyani formada yazılı, ehtiyac olduğu təqdirdə, şifahi formada keçirilib.

İmtahan sessiyasının mövcud qaydalara uyğun təşkil edilməsi, sualların tərtibi, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığın və obyektivliyin tam təmin olunması, imtahanların nəticəsindən yarana biləcək narazılıqların araşdırılması və həll edilməsi məqsədilə ali təhsil müəssisəsində Qərargah və onun nəzdində Apellyasiya Komissiyası yaradılıb. Daxil olan müraciətlər, şikayətlər qısa müddətdə çevik şəkildə araşdırılaraq, lazımi tədbirlər görülüb.

İmtahan sessiyasının gedişatı İlahiyyat fakültəsinin dekanlığı, Tədris şöbəsi və aidiyyəti kafedralar tərəfindən izlənilib.

Qeyd edək ki, imtahan sessiyası müddətində əldə etdikləri nəticələrə (ÜOMG-yə) əsasən təhsilalanlara tələbə təqaüdü ilə yanaşı, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən təsis olunmuş Heydər Əliyev adına, Qafqaz Müsəlmanları İdarəsinin təsis etdiyi Şeyxülislam adına və akad. Vasim Məmmədəliyev adına təqaüdlər veriləcək.

# Zərərli vərdişlərlə mübarizədə Qurani-Kərimin təqdim etdiyi həll yolları

Azərbaycan İlahiyyat İnstitutunda "Narkotik vasitələrin sui-istifadəsi və qanunsuz dövriyyəsi ilə Beynəlxalq Mübarizə Günü" ilə əlaqədar 29 iyun 2022-ci il tarixdə "Zərərli vərdişlərlə mübarizədə Qurani-Kərimin təqdim etdiyi həll yolu" mövzusunda seminar keçirilib.

Aİİ Dillər və ictimai fənlər kafedrasının müəllimi, dosent Elvüsal Məmmədov çıxışında zərərli vərdişlərin getdikcə artan təhlükəsinə toxunub, Qurani-Kərimin bu problemin həllində təqdim etdiyi çıxış yollarından danışıb. O, qeyd edib ki, mücərrəd-nəzəri biliklər əsasında problemi həll etmək mümkün deyildir. Bu baxımdan, Quran ayələrində bu cür məsələlərə kompleks baxış mövcuddur, çünki natamam və məhdud yanaşma səmərə vermir: "Əlaqədar ayələrin təhlili göstərir ki, zərərli vərdişlərlə mübarizədə Quran nöqteyi-nəzəri maarifləndirmə, yaxşı ilə pisin müqayisəsi, məhdudlaşdırma və qadağa ardıcıllığını əsas götürür. Bu baxımdan, Qurani-Kərimin zərərli vərdişlərlə mübarizə üsuluna tədricilik, ardıcıllıq və mərhələlilik xasdır".

E.Məmmədov vurğulayıb ki, Quran bu cür vərdişlərin inzibati, yaxud mexaniki formada qadağan edilməsinə deyil, onlardan qənaətbəxş inandırma ilə meydana gələn daxili istək əsasında imtina prinsipinə üstünlük verir.

Seminar müzakirələrlə davam edib.





# İlahiyyat İnstitutu beynəlxalq əlaqələrini genişləndirir

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərən Azərbaycan İlahiyyat İnstitutu ilə Türkiyənin Batman Universiteti arasında 29 iyun 2022-ci il tarixində "Mövlana" və "Erasmus+" proqramları çərçivəsində əməkdaşlıq protokolları imzalanıb.

Ali təhsil müəssisələri arasında əməkdaşlıq prinsiplərinə uyğun olaraq, elmi-pedaqoji, tədqiqat işlərinin aparılması sahəsində birgə fəaliyyətə əsaslanan protokolu Aİİ-nin Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru Mübariz Camalov və Batman Universitetinin rektoru, professor İdris Demir imzalayıblar.

Protokolda hər iki ali təhsil müəssisəsinin fakültə və kafedraları arasında qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan elmi-tədqiqat işlərinin aparılması, birgə layihələrin reallaşdırılması, professor-müəllim heyəti və təhsilalanlar üçün qarşılıqlı akademik səfərlərin həyata keçirilməsi nəzərdə tutulur.

Qeyd edək ki, Azərbaycan İlahiyyat İnstitutu ötən dövr ərzində müxtəlif ölkələrin ali təhsil müəssisələri ilə əməkdaşlıq əlaqələri yaradıb.



# İlahiyyat İnstitutunda

Azərbaycan İlahiyyat İnstitutunda 5 iyul 2022-ci il tarixində ilk dəfə olaraq "Məzun Günü" tədbiri keçirilib.

Öncə Aİİ-nin rəhbər heyəti və məzunları Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin xatirəsini ehtiramla anıb, məzarı önünə gül dəstələri qoyublar.

Sonra Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsi anılıb.

Dövlət rəsmiləri və dini konfessiya nümayəndələrinin iştirak etdikləri sözügedən tədbirdə Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunması və bərpası uğrunda şəhid olanların ruhları birdəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Daha sonra Aİİ-nin tələbələri toplu şəkildə Qurani-Kərim oxuyublar.

Açılış nitqi ilə çıxış edən Aİİ-nin rektoru Aqil Şirinov ali təhsil müəssisəsi haqqında geniş məlumat verib. Bildirib ki, ilk məzun buraxılışı həyata keçirən Aİİ Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 9 fevral 2018-ci il tarixli 3654 nömrəli Sərəncamına əsasən, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində yaradılıb: "İnstitutda bir fakültə (İlahiyyat fakültəsi) və üç kafedra (Dinşünaslıq, İslamşünaslıq, Dillər və ictimai fənlər kafedraları) mövcuddur. Hazırda fakültədə bakalavriat səviyyəsində 265, magistratura səviyyəsində 5, doktorantura səviyyəsində 3 tələbə təhsil alır.

Aİİ xarici ölkələrin təhsil müəssisələri ilə əməkdaşlığa xüsusi önəm verir. Ali təhsil müəssisəsinin hədəfi tədrisin müasir tələblər səviyyəsində qurulmasıdır. Bu məqsədlə Aİİ dünyanın qabaqcıl universitetlərinin təcrübəsindən yararlanır, həmçinin beynəlxalq əlaqələrini genişləndirir.

İnstitutda təkcə Quran, Hədis, Təfsir, Fiqh, Kəlam kimi İslam dininin tədrisinə dair ənənəvi fənlər deyil, eyni zamanda, dinləri sosioloji, psixoloji, fəlsəfi və tarixi aspektlərdən tədqiq edən fənlər də tədris olunur.

Ali təhsil müəssisəsi xarici dillərin tədrisinə böyük əhəmiyyət verir. İnstitutda tələbələr ərəb, ingilis və ibri dillərini yüksək səviyyədə öyrənmək imkanına malikdirlər. Bütün xarici dillər peşəkar mütəxəssislər tərəfindən müasir metodlar əsasında 4 dil bacarığının – oxuma, dinləmə, danışma, yazma inkişafı istiqamətində tədris edilir. Dərslərdən əlavə, tələbələr üçün ödənişsiz ərəb və ingilis dili kursları təşkil olunur.

Tədbirdə Azərbaycan İlahiyyat İnstitutunun əməkdaşlıq etdiyi xarici ali təhsil müəssisələri rəhbərlərinin videotəbrikləri nümayiş etdirilib.

Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri, t.e.d., prof. Fəzail İbrahimli İnstitutun məzunlarını təbrik edib. Bildirib ki, bir ali təhsilin xarici əlaqələrinin qurulması önəmlidir və Azərbaycan İlahiyyat İnstitutu bu vəzifənin öhdəsindən layiqincə gəlib.

Azərbaycanda mövcud tolerant mühitdən bəhs edən F.İbrahimli ölkəmizin dövlət-din münasibətlərinin dünyaya nümunə olduğunu bildirib.

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, f.e.d. Mübariz Qurbanlı tədbir iştirakçılarını salamladıqdan sonra, ölkəmizdə dövlət-din münasibətlərinin əsasının ulu öndər Heydər Əliyev tərəfindən qoyulduğunu və bu siyasətin Ümummilli Liderimizin layiqli varisi Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb. O, eyni zamanda qeyd edib ki, Birinci vitse-prezident Mehriban xanım Əliyeva və onun rəhbəri olduğu Heydər Əliyev Fondu tərəfindən bu sahəyə xüsusi diqqət və qayğı göstərilir.

Prezident İlham Əliyevin İnstitutun yeni binasının açılışında şəxsən iştirak etməsinin din sahəsinə böyük diqqət və qayğının növbəti təzahürlə-









# ilk Məzun Günü

rindən biri olduğunu qeyd edən Mübariz Qurbanlı məzunların ali təhsil ocağında aldıqları bilik və bacarıqlardan yüksək səviyyədə istifadə edərək, gələcək fəaliyyətləri dövründə ölkəmizin daha da inkişafına, dövlət-din münasibətlərinə öz töhfələrini verəcəklərinə inamını vurğulayıb. Məzunlara, müəllimlərə və tələbələrə gələcək fəaliyyətlərində yeni-yeni uğurlar arzulayıb.

Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini, f.f.d. Fuad Nurullayev Şeyxülislam Allahşükür Paşazadənin təbriklərini çatdırıb. F.Nurullayev bildirib ki, ilahiyyatçı olaraq ölkəsini mükəmməl təmsil etmə məsuliyyəti bugünkü məzunların üzərinə düşür. O, bu məsuliyyətli vəzifədə məzunlara uğurlar arzulayıb.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspora, multikulturalizm və dini məsələlər şöbəsinin sektor müdiri Müzəffər Talıblı məzunları təbrik edib. Bildirib ki, “Siz məzunlar öz sahəsinin peşəkar mütəxəssisləri olan müəllimlərinizdən aldıqlarınız biliklərlə dini-ideoloji sahədə mütəxəssis kimi yetişərək cəmiyyətə sağlam dini bilgilər verəcəksiniz”.

Professor, ictimai-siyasi xadim, Əməkdar elm xadimi Şahlar Əsgərov AİI məzunlarının cəmiyyətdə milli-mənəvi dəyərlərin aşılanması istiqamətində xüsusi rol oynayacaqlarını bildirib. O, məzunlara uğurlar arzulayıb.

Millət vəkili, i.f.d. Ceyhun Məmmədov tədbir iştirakçılarını salamladıqdan sonra məzunları təbrik edib. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin fəaliyyətini yüksək qiymətləndirən millət vəkili ali məktəbin ilk rektoru olaraq İnstitutun yaranması və fəaliyyətə başlaması barədə ətraflı danışıb. AİI-nin qısa zamanda yaranmasına baxmayaraq, ən mütəşəkkil təşkil olunmuş ali məktəblərdən birinə çevrildiyini vurğulayan Ceyhun Məmmədov məzunlara uğurlar arzulayıb və dövlətçilik prinsiplərini əsas tutaraq fəaliyyət göstərmələrini diləyib.

Millət vəkili, t.e.d., prof. Anar İsgəndərov məzunları təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb: “Əminik ki, AİI tələbələri olaraq ölkəmizin hər bir nöqtəsində dövlət-din münasibətlərinin tənzimlənməsi istiqamətində əlinizdən gələni əsirgəməyəcəksiniz”.

Valideynlər adından çıxış edən AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, t.e.d. Vaqif Abışov məzunlara təbriklərini çatdırdıqdan sonra, Azərbaycan İlahiyyat İnstitutunun yaranmasının əhəmiyyətini vurğulayıb. Ölkəmizdə dövlət-din münasibətlərinin inkişafı baxımından İlahiyyat İnstitutundakı təhsilin önəmini qeyd edib, ali məktəbə gələcək fəaliyyətində uğurlar arzulayıb.

AİI-nin məzunları adından çıxış edən Fərid Qasımzadə bildirib ki, Azərbaycan İlahiyyat İnstitutunun missiyası İslam və digər səmavi dinlər haqqında dərin biliklərə yiyələnən, milli, dini və əxlaqi dəyərləri qorumaqla Azərbaycan xalqının milli və mədəni inkişafına töhfə verən kadrlar yetişdirməkdir. Eyni zamanda, mənəvi irsimiz olan İslam dininin təbliği, xurafat və mövhumatdan uzaq tutulması üçün din xadimlərinin yetişdirilməsi də məhz İnstitutun vizyonunu təşkil edir. O bildirib ki, “Harada olmağımızdan asılı olmayaraq, dəyişməyən bir şey ondan ibarətdir ki, biz İlahiyyat İnstitutunun məzunlarıyıq. Bu müəssisənin məzunuyuqsa, bu, artıq cəmiyyətin bizdən müəyyən və ciddi gözləntilərinin olması deməkdir”.

Daha sonra Azərbaycan İlahiyyat İnstitutu məzunlarının iştirakı ilə hazırlanmış videoçarx nümayiş olunub.

Sonda Azərbaycan İlahiyyat İnstitutunun məzunları Tələbə Andını səsləndiriblər.



# Elmi Şuranın genişləndirilmiş iclası



Azərbaycan İlahiyyat İnstitutunda 7 iyul 2022-ci il tarixində Elmi Şuranın genişləndirilmiş iclası keçirilib. İclasda 2021/2022-ci tədris ilinin bakalavriat və magistratura səviyyələri üzrə yaz semestrinin yay imtahan sessiyasının yekunları, ali təhsil müəssisəsinin ümumi fəaliyyəti və cari dövrdə tədrisin təşkili məsələləri müzakirə olunub.

İclasda İnstitutun rəhbər heyəti, müəllimləri və əməkdaşları iştirak ediblər.

Aİİ rektoru Aqil Şirinov tədbir iştirakçılarını salamlayaraq, yay imtahan sessiyasının yekunları ilə bağlı məsələlərə toxunub. Qeyd edib ki, 2021/2022-ci tədris ili üzrə hər iki semestrin dərsləri və imtahanlar uğurla həyata keçirilib. Xüsusilə pandemiya dövründən sonra



dərslərin ənənəvi qaydada təşkili və imtahanların uğurla keçməsini diqqətə çatdırıb.

İnstitut rəhbəri daha sonra bildirib ki, tələbələrin dərslərdə və imtahanlarda fəal iştirakı tədrisin daha yaxşı təşkilinə, həmçinin mənimsənilməsinə şərait yaradıb.

Ali təhsil müəssisəsinin rektoru təhsilalanlar üçün nəzərdə tutulan ödənişsiz ərəb və ingilis dili kurslarının fəaliyyətinə toxunub, dil bacarıqlarının mükəmməlləşdirilməsi üçün bu proqramların təşkilinin önəmini xüsusi vurğulayıb. Eyni zamanda, klassik ərəbcə kursunun açılmasının vacibliyini vurğulayıb.

Aİİ-nin Elm və innovasiyalar üzrə prorektoru Mirniyaz Mürsəlov "İlahiyyat nəşrləri" adı altında ötən dövr ərzində ali təhsil müəssisəsinin müəllim və əməkdaşlarının əməyi sayəsində dərc olunan kitablardan bəhs edib. O, magistratura və doktorantura səviyyələrinə qəbulla bağlı məsələlərə, Aİİ kitabxanasının fəaliyyətinə də toxunub və İnstitutun xarici əlaqələri, imzalanmış protokollar barədə məlumat verib.



Daha sonra İlahiyyat fakültəsinin dekanı Elnurə Əzizova çıxış edərək, yay imtahan sessiyasında tələbələrin kəmiyyət və keyfiyyət göstəricilərindən danışıb. Yaz semestri yay imtahan sessiyasının keçirilməsi, qarşıya çıxan problemlər, imtahanların nəticələri haqqında məlumat verib. Dekan həmçinin Aİİ-nin builki bakalavr pilləsi üzrə məzunların müvəffəqiyyət göstəricilərinə də toxunub.

İnstitutun Tədris şöbəsinin müdiri Zərifə Əliyeva yaz semestri ərzində tədrisin təşkili, qarşıya çıxan problemlər barədə danışıb.



Magistratura və doktorantura şöbəsinin müdiri Fidan Yusifova magistrant və doktorantların elmi konfranslarda iştirakına toxunaraq, magistratura pilləsinə qəbulla bağlı məlumat verib.

Daha sonra Aİİ-nin İslamşünaslıq kafedrasının müdiri Əhməd Niyazov, Dillər və ictimai fənlər kafedrasının müdiri İlkin Əlimuradov və Dinşünaslıq kafedrasının müdiri Anar Qafarov çıxış edərək, cari dövr ərzində olan hesabatlarını təqdim ediblər.

İclas cari məsələlərin müzakirəsi ilə davam edib.

# Qurban bayramı tədbiri



Azərbaycan İlahiyyat İnstitutunda 8 iyul 2022-ci il tarixində Qurban bayramı münasibətilə tədbir keçirilib.

Tədbirdə AİI-nin müəllimləri, tələbələri və əməkdaşlar iştirak ediblər.

AİI İlahiyyat fakültəsinin dekanı Elnurə Əzizova tədbir iştirakçılarını salamladıqdan sonra, qarşıdan gələn müqəddəs Qurban bayramı münasibətilə təbriklərini çatdırıb. O, İlahiyyat İnstitutunda maariflənmə xarakteri daşıyan bu cür tədbirlərin önəmini diqqətə çatdırıb.

İslamşünaslıq kafedrasının müəllimi Vüqar Səmədov tədbir iştirakçılarını bayram münasibətilə təbrik etdikdən sonra, Qurban bayramı haqqında ətraflı məlumat verib. Qurban bayramının tarixi əhəmiyyətindən bəhs edən V.Səmədov bildirib ki, İslamdan əvvəl də qurbankəsmə mərasimi bütün ilahi dinlərdə mövcud olub.



Vüqar Səmədov daha sonra İslam dininə görə kəsilən qurbanların hökmləri haqqında təfsilatlı məlumat verib. Bildirib ki, bu bayram müsəlmanları birləşdirir, onları gözəl niyyətlər və xeyirxah əməllərə sövq edir.

Tədbir maraqlı müzakirələrlə davam edib.

# TƏDRİS KURSU BAŞA ÇATIB

Azərbaycan İlahiyyat İnstitutunun 2021/2022-ci tədris ilində Alban-udi xristian dini icması üçün təşkil etdiyi "Xristianlıq" tədris kursu 18 iyul 2022-ci il tarixində yekunlaşıb. Kursu müvəffəqiyyətlə bitirənlərə sertifikatların təqdim edilməsi mərasimi keçirilib. Tədbir Qəbələnin Nic qəsəbəsində baş tutub. Görüşdə Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov, Alban-udi Xristian Dini İcmasının sədri Robert Mobili və icma üzvləri iştirak ediblər.

AİI rektoru Aqil Şirinov tədbir iştirakçılarını salamladıqdan sonra, Azərbaycan dövlətinin təkcə müsəlman dini irsinə deyil, həmçinin xristian və digər dini inanclara də sahib çıxdığını vurğulayıb. Prezident İlham Əliyevin hər il müsəlman və qeyri-müsəlman dini icmalarına maddi vəsait ayırdığını, eyni zamanda, yalnız müsəlman məbədlərinin deyil, həmçinin qeyri-müsəlman – xristian və yəhudi ocaqlarının təmir və inşa edildiyini diqqətə çatdırıb.

Ali təhsil müəssisəsinin rəhbəri daha sonra Qarabağda ermənilərin yalnız müsəlman məbədlərini deyil, eləcə də xristian müəssisələrini də məhv etdiklərini vurğulayıb. Bütün bu vəhşiliklərin müəllifinin ermənilər olduğuna dair sübutları nəzərə çatdırıb.

Azərbaycan İlahiyyat İnstitutunun ölkəmizdə yeganə ali dini təhsil verən müəssisə olduğunu vurğulayan rektor bildirib ki, ali təhsil ocağı təkcə müsəlman dini icmalarla deyil, həmçinin qeyri-müsəlman dini icmalarla da sıx əlaqədə fəaliyyət göstərir. A.Şirinov qarşılıqlı əlaqələrə əyani nümunə olaraq, AİI-nin Alban-udi xristian dini icması ilə birlikdə "Xristianlıq" tədris kursu təşkil etdiyini nəzərə çatdırıb. Qeyd edib ki, bundan sonra da icma ilə birlikdə əlaqələrin genişləndiriləcəyi, bu səpkili kursların keçiriləcəyi nəzərdə tutulub.

Daha sonra Alban-udi xristian dini icmasının sədri Robert Mobili çıxış edib. O, AİI-yə kursu təşkil etdiyi üçün təşəkkürünü bildirib. Robert Mobili AİI ilə birlikdə əməkdaşlığın daha da genişləndiriləcəyini vurğulayıb.

Sonda kursu müvəffəqiyyətlə bitirənlərə sertifikatlar təqdim edilib.



# Milli Mətbuat Gününə həsr olunmuş tədbir

Azərbaycan İlahiyyat İnstitutunda 22 İyul – Milli Mətbuat Gününə həsr olunmuş tədbir keçirilib.

AİI-nin Elm və innovasiyalar üzrə prorektoru Mirniyaz Mürsəlov tədbir iştirakçılarını salamlayaraq, Milli Mətbuat Günü münasibətilə təbriklərini çatdırıb. Prorektor qeyd edib ki, Həsən bəy Zərdabinin təsis etdiyi "Əkinçi" qəzetinin nəşri bütün Qafqazda əks-səda doğuraraq, xalqımızın milli oyanışında, birliyinin möhkəmləndirilməsində böyük rol oynayıb. M.Mürsəlov mətbuatın dövlət-din münasibətlərinə xüsusi diqqət və həssaslıqla yanaşdığını yüksək qiymətləndirib, media nümayəndələrini bu sahədə həyata keçirilən islahatları ictimaiyyətə çatdırmaqda daha fəal olmağa çağırıb.



Prorektor daha sonra qeyd edib ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və Prezident cənab İlham Əliyev tərəfindən davam etdirilən uğurlu siyasət nəticəsində, mətbuatımız özünün yeni inkişaf mərhələsinə daxil olub.

M.Mürsəlov bildirib ki, ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrdə də bütün sahələrə olduğu kimi, yazarlara, mətbuat işçilərinə, qələm əhlinə xüsusi diqqət və qayğı göstərib. Ölkəmiz müstəqillik əldə etdikdən sonra, hər il iyulun 22-si Milli Mətbuat Günü kimi qeyd olunur.

Tədbirdə mətbuat nümayəndələri çıxış edərək, İlahiyyat İnstitutunun fəaliyyəti və mətbuatla əlaqələrinin qurulması barədə fikir mübadiləsi aparıblar.

Sonda ali təhsil müəssisəsinin fəaliyyətini obyektiv işıqlandıran, fəallığı ilə seçilən mətbuat nümayəndələri təltif olunublar.



# "Din araşdırmaları" jurnalının VII sayı

Azərbaycan İlahiyyat İnstitutunun elmi fəaliyyətinin əsas göstəricilərindən biri olan "Din araşdırmaları" jurnalının VIII sayı dərc edilib.

Jurnalın məqsədi ölkəmizdə və dünyada din sahəsində tədqiqat aparan alimlərin məqalələrini elmi ictimaiyyətə təqdim etməkdən ibarətdir. İldə iki dəfə dərc olunan jurnalın yeni sayında 8 məqalə yer alıb. Din sosiologiyası, təfsir, İslam məzhəbləri tarixi, fəlsəfə, İslam hüququ, təsəvvüf, multikulturalizmə dair qələmə alınmış elmi məqalələr öz sahəsinin peşəkar və nüfuzlu tədqiqatçıları tərəfindən təqdim edilmişdir. Jurnalda Azərbaycan, türk və ərəb dillərində də məqalələr dərc olunmuşdur. Dərginin redaksiya heyətinin üzvləri Azərbaycanla yanaşı, Türkiyə, Rusiya, Pakistan, Qazaxıstan, İran və İsveçrənin ali təhsil müəssisələrində çalışan tanınmış alimlərdir.

Qeyd edək ki, jurnalın nəşr qaydaları Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının elmi jurnallar qarşısında qoyduğu tələblərə, həmçinin bu sahədəki beynəlxalq standartlara uyğun olaraq hazırlanıb.

Azərbaycan İlahiyyat İnstitutu ali dini təhsil üzrə ixtisaslaşmış müəssisədir. İnstitut din sahəsi də daxil olmaqla, ictimai elmlərin müxtəlif istiqamətlərində monoqrafiya, dərslik, dərs vəsaiti, proqram və məqalələrin nəşrinə üstünlük verir.

Akademik nəşrlər ali təhsil müəssisələrinin elmi fəaliyyətinin əsas göstəricilərindən biridir. Gələcəkdə "Din araşdırmaları" jurnalının tanınmış beynəlxalq indekslərə daxil edilməsi nəzərdə tutulur.




"Din araşdırmaları" jurnalı 2020-ci ildən Ali Attestasiya Komissiyası tərəfindən fəlsəfə və psixologiya üzrə elmi məqalələrin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına daxil edilib.

# “Ərəb dili” dərsliyi nəşr olunub




Azərbaycan İlahiyyat İnstitutu Dillər və ictimai fənlər kafedrasının dosenti, fəlsəfə üzrə fəlsəfə doktoru Elvüsal Məmmədovun müəllifi olduğu “Ərəb dili” dərsliyi nəşr olunub.

Dərslik Azərbaycan İlahiyyat İnstitutu İlahiyyat fakültəsinin “Dinşünaslıq” və “İslamşünaslıq” ixtisasları üzrə təhsil alan I-II kurs tələbələri üçün tərtib olunub.

Kitabda qarşıya qoyulan başlıca məqsəd ərəb dili üzrə oxu, yazı və tərcümə bacarıqlarını formalaşdırmaq, tələbələrdə müasir ərəb dilinin lazımi səviyyədə mənimsənilməsini təmin edəcək məlumat bazası yaratmaqdır.

Kitab 20 dərsdən, əksəriyyəti dini mövzulara aid 12 mətn və ərəbcə-azərbaycanca qısa lüğətdən ibarətdir. Mövzular sadədən-mürəkkəbə, asandan-çətinə doğru bölüşdürülüb. Belə ki, leksik-qrammatik mövzuları ilk semestr üçün çox asan, ikinci semestr üçün orta-çətin, üçüncü və dördüncü semestrlər üçün nisbətən çətin olaraq səciyyələndirmək mümkündür. İyirmi dərsdən ibarət olan kitabda ərəb dilinin fonetikası, morfologiya və sintaksisi tələbələrdə lazımi söz ehtiyatını formalaşdıracaq nümunələr (sözlər və cümlələr) əsasında praktik şəkildə öyrədilir.

Hər bir qrammatik mövzuya dair seçilmiş tapşırıqlar tələbələrdə praktik və nəzəri biliklərin möhkəmləndirilməsinə xidmət edir.

Dərslikdən yalnız İlahiyyat fakültəsi tələbələri deyil, həmçinin ərəb dili ilə maraqlanan hər kəs faydalana biləcək.

# “İslamşünaslıq” ixtisası üçün müsahibə mərhələsi

Azərbaycan İlahiyyat İnstitutunda 27 iyul 2022-ci il tarixində III ixtisas qrupu üzrə bakalavr pilləsinin “İslamşünaslıq” ixtisasına qəbul olmaq istəyən abituriyentlər üçün müsahibə mərhələsi başlayıb. Müsahibə iyulun 29-dək davam edib.

Qeyd edək ki, Dövlət İmtahan Mərkəzinin saytında müsahibə mərhələsində iştirak etmək üçün qeydiyyat 21- 24 iyul 2022-ci il tarixində aparılıb.

Abituriyentlərin dünyagörüşü səviyyələrinin və “İslamşünaslıq” ixtisasına maraqlarının müəyyənləşdirilməsi məqsədilə Dövlət İmtahan Mərkəzi tərəfindən Dini Psixoloji Komissiya yaradılıb. Komissiyanın tərkibinə ilahiyyat sahəsi üzrə mütəxəssislər, ekspertlər, psixoloqlar, həmçinin Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin, Azərbaycan İlahiyyat İnstitutunun və DİM-in əməkdaşları daxil ediliblər.

Müsahibə zamanı abituriyentlərin ümumi dini bilikləri, “İslamşünaslıq” ixtisasına uyğunluqları, gələcəkdə din xadimi kimi fəaliyyət göstərməyə münasibətləri, insanlarla ünsiyyət bacarıqları, xitabət və natiqlik qabiliyyətləri qiymətləndirilib, psixoloji vəziyyətləri, yaradıcı təfəkkür imkanları yoxlanılıb.

Müsahibədən məqbul qiymət almış abituriyentlər ixtisas seçimi zamanı digər ixtisaslarla yanaşı, Azərbaycan İlahiyyat İnstitutunun “İslamşünaslıq” ixtisasını da seçiblər.

Məlumat üçün bildirək ki, Dini Psixoloji Komissiya ölkədə koronavirus (COVID-19) pandemiyasının daha geniş yayılmasının qarşısını almaq məqsədilə TƏBİB-in tövsiyələrinə uyğun olaraq fəaliyyət göstərib.



Komissiya Bakı şəhəri Məhəmməd Naxçıvani, 29 ünvanında – Azərbaycan İlahiyyat İnstitutunun inzibati binasında təşkil olunub.

Qeyd edək ki, Azərbaycan İlahiyyat İnstitutunda təhsil tam ödənişsizdir. Ali təhsil müəssisəsi Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub saxlanılması, inkişafı və dini fəaliyyət sahəsində yüksəkixtisaslı kadrların hazırlanmasının təmin edilməsi məqsədilə müasir təhsil standartları və müvafiq sahədə dünya təcrübəsi əsasında fəaliyyət göstərir. İnstitutda müasir sosial elmlərin metodları əsasında İslamla yanaşı, digər dünya dinlərinin inanc, ibadət, əxlaq sistemi və ictimai strukturları, həmçinin dini elmlərlə yanaşı, fəlsəfə, sosiologiya, psixologiya, multikulturalizm və digər sosial və humanitar elmlər də tədris olunur.

# İlahiyyat İnstitutu və Yozqat Bozok Universiteti arasında Əməkdaşlıq Protokolu imzalanıb

Türkiyənin Yozqat Bozok Universitetinin rektoru Ahmet Karadağ 4 avqust 2022-ci il tarixində Azərbaycan İlahiyyat İnstitutunun qonağı olub.

AİI rektoru Aqil Şirinov qonağı salamlayaraq, onu İnstitutda görməkdən məmnun olduğunu bildirib. İlahiyyat İnstitutunun fəaliyyəti haqqında məlumat verən rektor ali təhsil müəssisəsinin məqsəd və vəzifələri, hədəfləri haqqında ətraflı bəhs edib. AİI-nin beynəlxalq əlaqələrə, xarici ölkələrin təhsil müəssisələri ilə əməkdaşlığın yaradılmasına xüsusi önəm verdiyini diqqətə çatdırıb.

Ali təhsil müəssisəsinin rektoru A.Şirinov tarixboyu Türkiyə və Azərbaycan arasında sarsılmaz dostluq və qardaşlıq münasibətlərinin mövcudluğuna toxunaraq, 44 günlük Vətən müharibəsi zamanı göstərdikləri mənəvi dəstək üçün Türkiyə xalqına dərin minnətdarlığını bildirib.

Türkiyənin Yozqat Bozok Universitetinin rektoru Ahmet Karadağ təşəkkürünü bildirərək, İlahiyyat İnstitutu ilə əməkdaşlığın hər iki tərəf üçün faydalı və maraqlı olacağını diqqətə çatdırıb.

Daha sonra iki ali təhsil müəssisəsi arasında birgə elmi-pedaqoji və tədqiqat işlərinin aparılmasını nəzərdə tutan Əməkdaşlıq Protokolu imzalanıb.

Ali təhsil müəssisələri arasında əməkdaşlıq prinsiplərinə uyğun olaraq, elmi-pedaqoji, tədqiqat işlərinin



aparılması sahəsində birgə fəaliyyətə əsaslanan Protokolu AİI-nin rektoru Aqil Şirinov və Yozgat Bozok Universitetinin rektoru Ahmet Karadağ imzalayıblar.

Protokolda hər iki ali təhsil müəssisəsinin fakültə və kafedraları arasında qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan elmi-tədqiqat işlərinin aparılması; birgə layihələrin reallaşdırılması; professor-müəllim heyəti və təhsilalanlar üçün qarşılıqlı akademik səfərlərin həyata keçirilməsi nəzərdə tutulur.

Sənəddə təcrübə və araşdırma, tədris prosesinin təşkili ilə bağlı bilikərin bölüşdürülməsi, universitetlərin alim və mütəxəssislərinin iştirakı ilə konfransların keçirilməsi, tələbə mübadiləsi və digər məsələlər yer alıb.

# İslam Gənclər Təşkilatının prezidenti AİI-də



İslam Gənclər Təşkilatının (Organisation of Islamic Youth) prezidenti Hammad Xan 8 sentyabr 2022-ci il tarixdə Azərbaycan İlahiyyat İnstitutunu ziyarət edib.

AİI-nin rektoru, dosent Aqil Şirinov qonağı ali təhsil müəssisəsində görməkdən məmnun olduğunu bildirib. Pakistan – Azərbaycan qardaşlığından bəhs edən İnstitut rəhbəri A.Şirinov 44 günlük Vətən müharibəsindən söhbət açaraq, həmin dövrdə, eləcə də keçmiş Qarabağ münaqişəsi zamanında Pakistan Hökuməti və xalqı tərəfindən ölkəmizə göstərilən siyasi və mənəvi dəstəyə görə təşəkkürünü ifadə edib.

A.Şirinov ali təhsil müəssisəsinin fəaliyyəti, ölkədaxili və xarici əlaqələri, ölkəmizin multikultural və tolerantlıq ənənələrinin təbliğindəki rolu, gələcək hədəfləri barədə ətraflı məlumat verib. O, AİI-də mövcud ixtisaslar və təhsil pillələri haqqında söhbət açıb. Qeyd edib ki, İnstitutda bakalavrat, magistratura və doktorantura pillələri üzrə tədris aparılır. Rektor, eyni zamanda, Pakistan Müsəlman İnstitutu ilə əməkdaşlıq əlaqələri haqqında da qonaqlara danışıb.

İnstitut rəhbəri daha sonra ölkəmizdə mövcud dinlərarası münasibətlərdən bəhs edib. Rektor Vətən müharibəsindən sonra yerlə-yeksan edilmiş torpaqlarımızda Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan quruculuq işlərini, dini ibadət ocaqlarının bərpasına verilən önəmi vurğulayıb.

Ətraflı məlumata görə minnətdarlığını ifadə edən İslam Gənclər Təşkilatının prezidenti Hammad Xan təmsil etdiyi qurum haqqında məlumat verib. Bildirib ki, İslam Gənclər Təşkilatı Qarabağ həqiqətlərinin dünyaya çatdırılması istiqamətində müxtəlif tədbirlər həyata keçirir. Qonaq Pakistanda mövcud din təhsili haqqında danışıb, ikitərəfli əməkdaşlıq əlaqələrinin qurulmasının mümkünlüyünü vurğulayıb.

Görüş birgə əməkdaşlıq münasibətlərinin inkişaf perspektivləri, qarşılıqlı maraq doğuran digər məsələlərin müzakirəsi ilə davam edib.

# "İlahiyyat" jurnalı çap olunub

Azərbaycan İlahiyyat İnstitutunun "İlahiyyat" elmi-publisistik jurnalının növbəti – VI buraxılışı işıq üzü görüb.

On üç rubrikadan ibarət olan buraxılışda öz sahəsinin peşəkar mütəxəssisi olan elm adamlarının, həmçinin Aİİ-nin tələbə və məzunlarının yazıları yer alıb.

Jurnalın budəfəki sayı "Rəsmi guşə" rubrikası ilə başlayır. Rubrikada "Ramazan Bayramı münasibətilə Prezident İlham Əliyevin Azərbaycan xalqına təbriki" və "Prezident İlham Əliyev Azərbaycan İlahiyyat İnstitutunun yeni binasının açılışında iştirak edib" başlıqlı yazılar yer alıb.

"Dəyərlərimiz" rubrikasında Aİİ rektoru Aqil Şirinovun "Heydər Əliyev və dəyərlərimiz", Milli Məclisin deputatı Ceyhun Məmmədovun "Milli-mənəvi dəyərlərimizin qorunmasında Heydər Əliyevin rolu" və Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılovun "Müştərək şüur – ortaq dəyər" sərlövhəli məqalələri dərc edilib.

"İslam əxlaqı" rubrikasında "İslam dinində insanın Allah qarşısında vəzifələri və məsuliyyəti" adlı məqalə dərc olunub.

"Xurafat və mövhumatsevərlik haqqında", "Din və ekologiya", "Dini plüralizmin əsasları", "Mürciənin təşəkkül dövrü və inkişafı" və "Qiyamət Günü haqqında" başlıqlı məqalələr jurnalın "Cəmiyyət və din" rubrikasında yer alıb.

"İngilis dili dərslərində tələbələrin davranış pozuntuları"; "Uşaqları düzgün tərbiyə etmənin yolları (1-3 yaş qrupu)" sərlövhəli məqalələr "Tədris" rubrikasında dərc edilib.

"Şuşa – düyünlənmiş yumruğumuzdur"; "Milli-mənəvi sərvətimizsən, Şuşam" mövzularında yazılar "Vətənpərvərlik" rubrikasında yerləşdirilib.

"Araşdırma" rubrikasında "Yaşadığımız həqiqətlər doğrudurmu?! (Platonun mağara istiarəsi – ideyalar aləmi)", "Quranda və Platonda təsvir edilən itmiş şəhər – Atlantida", "Psixoanaliz nəzəriyyəsinin tarixi arxa planı: Ziqmund Freyd nümunəsində", "Əs-sirə" əsərində Həzrət Osman ilə əlaqəli hissənin dəyərləndirilməsi" başlıqlı məqalələr verilib.

"Baxış bucağı" rubrikasında "Dövlətçilik şüuru" başlıqlı məqalə yer alıb.

"İslamda Qurban ibadəti"; "İslamda qəbir ziyarəti"; "Quran Quranı tərif edir", "Kərbəla", "Deizm, ateizm və yeni kəlam elmi" sərlövhəli yazılar "İslam tarixi" rubrikasında dərc olunub.

"Abidələrimiz" rubrikasında "Qarabağ türbələri" başlıqlı yazı dərc olunub.

Aİİ tələbə və məzunlarının "Ailədə dini təlim-tərbiyə" və "Azərbaycan İlahiyyat İnstitutu haqqında təəssüratlarım" başlıqlı məqalələri "Mənəviyyat" və "Məzun sözü" rubrikalarında dərc olunub.

Aİİ tələbələrinin "Sərin bir yaz axşamı", "Allahı tanı", "Mən Şəhid anasıyam" və "Xalqıma" adlı şeirləri isə "Ədəbiyyat" rubrikasında yer alıb.

# Polşalı qonaqlar Aİİ-ni ziyarət edib



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Polşa Respublikasındakı Səfirliyi və "Həyat sözü" Xristian Dini İcmasının birgə təşkilatçılığı ilə Varşava Böyük Keşişlər Seminariyasının rektoru Voyçex Bartkoviçin rəhbərlik etdiyi nümayəndə heyəti 7-14 sentyabr 2022-ci il tarixlərdə ölkəmizdə rəsmi səfərdə olub. Səfərdə məqsəd Azərbaycandakı dini həmrəylik, tolerantlıq mühiti, xristian, eləcə də Alban dini məbədləri, polyak mirası və icması ilə tanışlıqdır.

Nümayəndə hieyəti sentyabrın 13-də Azərbaycan İlahiyyat İnstitutunu ziyarət edib. Qonaqlar Aİİ rektoru Aqil Şirinovla görüşərək, ikitərəfli əlaqələrin qurulması haqqında fikir mübadiləsi aparıblar.

Aİİ rektoru Aqil Şirinov ali təhsil müəssisəsi haqqında qonaqlara geniş məlumat verib. Aİİ-nin fəaliyyəti, ölkədaxili və xarici əlaqələri, ölkəmizin multikultural və tolerantlıq ənənələrinin təbliğindəki rolu, gələcək hədəfləri barədə danışıb. Bildirib ki, İnstitutda bakalavirat, magistratura və doktorantura pillələri üzrə tədris aparılır. O, Aİİ-də mövcud olan "İslamşünaslıq" və "Dinşünaslıq" ixtisasları, keçirilən fənlər barədə söhbət açıb.

Qonaqlar Azərbaycan İlahiyyat İnstitutunda olmaqdan məmnunluqlarını ifadə edib, ali təhsil müəssisəsinin fəaliyyətinə uğurlar arzulayıblar.

Görüş birgə əməkdaşlıq münasibətlərinin inkişaf perspektivləri, qarşılıqlı maraq doğuran digər məsələlərin müzakirəsi ilə davam edib.

Qeyd edək ki, Varşava Böyük Keşişlər Seminariyasının rektoru Voyçex Bartkoviçin rəhbərlik etdiyi nümayəndə heyətinin tərkibinə Varşava Oçota rayonunun pastoru Przemislav Çvek, Varşava Baş Yeparxiyasının Uşaq və Gənclərin Müdafiəsi üzrə Yepiskop Nümayəndəsinin müavini Mixal Turkovski və başqaları daxildir.

# Rektor I kurs tələbələri ilə görüşüb



Azərbaycan İlahiyyat İnstitutunun rektoru, dosent Aqil Şirinov 15 sentyabr 2022-ci il tarixdə I kurs tələbələri ilə görüşüb.

Tədbirdə respublikamızın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi birdəqiqəlik ehtiram sükutu ilə yad edilib.

Aİİ rektoru tələbələri ali təhsil müəssisəsinə qəbul olmaları münasibətilə təbrik edərək bildirib ki, bu onların həyatında yeni səhifədir. A.Şirinov vurğulayıb ki, Vətənə layiqli vətəndaş, milli şüura malik, zəngin dünyagörüşlü, perspektivli mütəxəssis olmaq üçün dayanmadan çalışmaq vacibdir.

İnstitutda təhsilalanlar üçün yaradılan şəraitdən söhbət açan rektor ali təhsil müəssisəsi haqqında geniş məlumat verib. Bildirib ki, İnstitut Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə 9 fevral 2018-ci ildə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində yaradılıb. Ali təhsil müəssisəsi yarandığı gündən tələbələrin daha yaxşı təhsil almaları üçün əlindən gələni əsirgəmir.

Dövlətin verdiyi imtiyazları xüsusi vurğulayan A.Şirinov tələbələrin pulsuz dərslik və yeməkpulu ilə təmin olunmaları məsələsinə də toxunub. O, həmçinin qeyd edib ki, semestr ərzində yüksək göstəricilərə malik tələbələrimiz dövlət tərəfindən verilən təqaüddən əlavə, digər təqaüd proqramlarından da yararlana bilərlər. Bunlar ümummilli lider Heydər Əliyev adına, Şeyxülislam adına, QMİ-nin təsis etdiyi akad. Vasim Məmmədəliyev adına, Mənəvi Dəyərlərin Təbliği Fondunun təsis etdiyi təqaüdlərdir.

Aİİ rektoru daha sonra tələbələri İnstitutun ictimai həyatında fəal olmağa səsləyib. Bildirib ki, Aİİ il ərzində ölkədaxili səfərlər, qış və yay məktəbləri, müxtəlif yarışmalar və tədbirlər təşkil edir.

A.Şirinov sonda daha yüksək göstəricilər göstərərək Aİİ-yə daxil olan tələbələri təbrik edərək onlara hədiyyələr təqdim edib.

Qeyd edək ki, Azərbaycan İlahiyyat İnstitutunun bakalavriat səviyyəsinə bu il 74 tələbə qəbul olub.

## 27 Sentyabr – Anım Günü tədbiri

Azərbaycan İlahiyyat İnstitutunda 27 Sentyabr – Anım Günü ilə əlaqədar tədbir keçirilib. Tədbirdə qazilər, Aİİ-nin tələbələri və əməkdaşları iştirak ediblər.

Ərazi bütövlüyümüz uğrunda şəhid olanların ruhlarının birdəqiqəlik ehtiram sükutu ilə yad edilməsi ilə başlayan mərasimdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Daha sonra Aİİ-nin tələbəsi tərəfindən şəhidlərimizin əziz xatirəsinə Qurani-Kərimin tilavəti təqdim edilib.

Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən ərsəyə gələn şəhid övladlarının da iştirakı ilə hazırlanmış "Şəhid övladlarının zəfər sədası" kompozisiyası nümayiş olunub.

İnstitutun İlahiyyat fakültəsinin dekanı, dosent Elnurə Əzizova açılış nitqi ilə çıxış edərək, iştirakçıları salamlayıb. Dekan 44 günlük Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad etmiş torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizi, bütün şəhidlərimizi dərin ehtiramla yad edib. İlahiyyat İnstitutunun hər zaman tələbələrinə milli-mənəvi dəyərlər aşıladığını qeyd edən E.Əzizova şərəfli döyüş yolu keçmiş qazilərlə görüşün əhəmiyyətini vurğulayıb.

Daha sonra 44 günlük Vətən müharibəsi iştirakçısı – polkovnik-leytenant Dəyanət Məmmədov çıxış edərək, torpaqlarımızın azadlığı uğrunda keçdikləri döyüş yolundan, qəhrəman oğullarımızın şücaətlərindən bəhs edib.

Vətən müharibəsi iştirakçısı – baş gizir, kəşfiyyatçı Amil Əbilov və baş çavuş Ayaz Allahverdiyev çıxış edərək, Azərbaycan tarixinin hər səhifəsində mübarizənin olduğunu, budəfəki Zəfər tariximizin isə fərqliliyini qeyd ediblər. Bu mübarizədə xalqımızın maddi və mənəvi dəstəyinin ön cəbhədə əsgər və zabitlərin döyüş ruhlarını yüksəltdiyini vurğulayıblar.

Tədbir tələbələrin qarşılıqlı sual-cavabı ilə davam edib.

# Beynəlxalq simpozium keçirilib

Azərbaycan İlahiyyat İnstitutu, Mənəvi Dəyərlərin Təbliği Fondu, Kırıkkale Universitetinin İslam elmləri fakültəsi və İslam Ölkələri Tədqiqat Mərkəzinin birgə təşkil etdikləri “İslam mədəniyyətində birgəyaşayış təcrübəsi” mövzusunda beynəlxalq simpozium 20 sentyabr 2022-ci il tarixdə öz işinə başlayıb.

Simpozium iştirakçıları Fəxri xiyabana gələrək, Ümummilli Lider, müasir müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə güllər düzüblər. Eyni zamanda, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da ruhu anılıb, məzarı üzərinə güllər qoyulub.

Sonra Şəhidlər xiyabanına gələn qonaqlar ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, məzarları üzərinə güllər düzüblər.

* * *

Öncə ərazi bütövlüyümüzün qorunması uğrunda şəhid olanların ruhu birdəqiqəlik ehtiram sükutu ilə yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Daha sonra torpaqlarımızın qorunması uğrunda şəhid olanların ruhlarına hörmət əlaməti olaraq, Aİİ-nin tələbəsi Əmrah Eminovun təqdimatında Quran tilavəti təqdim edilib.




Açılış nitqi ilə çıxış edən Aİİ rektoru, dosent Aqil Şirinov müasir dünyada birgəyaşayış çərçivəsində ortaya çıxan böyük problemlərin əsas amillərindən birinin milli, irqi və dini müstəvidə artan ayrı-seçkilik olduğunu nəzərə çatdırıb. Bildirib ki, etiqadi və məzhəb zəminində baş verən ayrı-seçkilik və münaqişələr elm və irfandan uzaq olan bəzi dini qrupları müsəlman dünyasına yönəldilmiş planların könüllü iştirakçılarına çevirir: “Bütün bunlar bizi İslam Şərqində və mədəniyyətində birgəyaşayış ənənəsini, tarixi təcrübələri, Həzrət Məhəmmədin həyat fəlsəfəsinə bağlı prinsipləri yenidən gözdən keçirib təhlil etməyə, İslam mədəniyyətinin şifrələrini və bu mədəniyyətin müqəddəs mətnlərini doğru oxumağa sövq edir”.

A.Şirinov ulu öndər Heydər Əliyev tərəfindən təməli qoyulan dini dəyərlərə hörmət və qayğı, eyni zamanda birgəyaşayış ənənələrin təbliğinə əsaslanan bu nəcib siyasəti hazırda Respublika Prezidenti cənab İlham Əliyev uğurla davam etdirdiyini vurğulayıb.

Simpoziumun İslam mədəniyyətində birgəyaşayış təcrübəsinin tədqiqinə öz töhfəsini verəcəyindən əmin olduğunu vurğulayan Aİİ rektoru tədbirin işinə uğurlar arzulayıb.

**(Ardı 16-cı səhifədə)**



# Beynəlxalq Simpozium keçirilib













(Əvvəli 15-ci səhifədə)

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru, ilahiyyat üzrə fəlsəfə doktoru Mehman İsmayılov İslamın əsas qaynaqlarından nümunələr gətirərək birgəyaşayış məsələsinə toxunub. Bildirib ki, sonrakı dövrlərdə, xüsusən də son bir neçə əsrdə Qərb mədəniyyətinin hakim mədəniyyətə çevirilməsi, İslam mədəniyyətinin bu böyük ənənə və təcürbəsinə kölgə salmış, əvəzində dinimizin və mədəniyyətimizin adı terror, ekstremizm, radikalizm və s. qavramlarla birgə anılmağa başlanmışdır.

M.İsmayılov vurğulayıb ki, bu böyük mirası dünya ictimaiyyətinə təqdim və təbliğ etmədə çox aktiv olmalıyıq: “İslam mədəniyyətinin bir parçası olan Azərbaycan da keçmişdən bu günə çox zəngin birgəyaşayış ənənələrinə sahibdir və dövlətimiz bu sahəyə bu gün də böyük diqqət göstərir. Etnik, mədəni, dini, məzhəb və s. cəhətdən müxtəlifliyin olduğu ölkəmizdəki birgəyaşayış mühiti bəşəriyyətin birgəyaşayışına öz töhfəsini verir. Bu mühit sadəcə qanunlara deyil, həm də kökləri dərində olan böyük mirasa söykənir”.

Kırıkkale Universiteti İslam elmləri fakültəsinin dekanı, professor Mevlüt Erten qeyd edib ki, İslam mədəni mühitinin birgəyaşayışla bağlı bir çox dəyərə və zəngin tarixi təcrübələrə sahib olduğunun şahidiyik. Mevlüt Erten qloballaşma dövründə ksenofobiyanın mədəniyyətlər və dinlər arasında dialoqun inkişafına ciddi təhdid olduğunu vurğulayaraq bildirib ki, bu meyil dünyada sülhün və sabitliyin pozulmasında maraqlı olan radikal, terrorçu qüvvələr tərəfindən dəstəklənir. Bu təhdidin qarşısını almaq üçün tolerantlığın, dialoqun, əməkdaşlığın və həmrəyliyin gücləndirilməsi böyük əhəmiyyət daşıyır. Bu baxımdan, Azərbaycanın rolu xüsusi vurğulanmalıdır.

M.Erten “İslam mədəniyyətində birgəyaşayış təcrübəsi” mövzusunda keçirilən beynəlxalq simpoziumun təşkilatçısı olmaqdan xüsusi qürur duyduğunu nəzərə çatdırıb.

Beynəlxalq simpozium iştirakçılarını salamlayan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Azərbaycanda birgəyaşayış ənənəsi, milli-mənəvi miras və dövlət siyasəti barədə danışıb. Bildirib ki, din insanların mənən zənginləşməsində geniş təsir imkanlarına malikdir. Bununla bərabər dinin insanların həyatındakı rolunu danmaq, funksiyalarından düzgün faydalanmamaq, habelə ondan sui-istifadə hallarına yol verməк dövlət və cəmiyyət qarşısında yeni problemlər və təhlükələr yarada bilər.

Dövlət Komitəsinin sədri vurğulayıb ki, İslam Azərbaycan xalqının milli-mənəvi dəyərlərindən biri, onun tarixinin ayrılmaz tərkib hissəsidir. Ümummilli lider Heydər Əliyev tərəfindən böyük peşəkarlıq və həssaslıqla hazırlanan, milli-mənəvi dəyərlərə qayıdışın əsasını qoyan, xalqın keçmişinə, milli adət-ənənə-









lərinə, dininə dövlət səviyyəsində qayğı göstərən, ölkədə dini etiqad, inanc azadlığını tam təmin edən dövlət-din münasibətləri modeli Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir. Bu istiqamətdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun həm ölkə daxili, həm də ölkə xaricindəki dini abidələrin, ibadət evlərinin təmir və bərpa olunmasında, dini-mədəni irsimizin qorunub-saxlanması, milli-mənəvi dəyərlərimizin dünyada tanıdılması, habelə dini abidələrin bərpasına qayğı göstərilməsində əvəzsiz xidmətləri var.

Sonda Komitə sədri simpoziumun qarşıya qoyduğu məqsədə çatacağına, müsəlman cəmiyyətləri arasında birgəyaşayış təcrübəsi modellərini uğurla təqdim edəcəyinə əminlik duyduğunu və onun işinə müvəffəqiyyətlər arzu etdiyini bildirib.

Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini, fəlsəfə üzrə fəlsəfə doktoru Fuad Nurullayev isə qeyd edib ki, dinimiz təkcə müsəlmanlara qayğı göstərməyi buyurmur: “Dinimiz dinindən asılı olmayaraq ehtiyacı olan bütün şəxslərə yardım etməyi əmr edir. Birgəyaşayış, dinlərarası qardaşlıq, dostluq məhz bu əməllər üzərində qurulur, formalaşır. “Əl-Bəqərə” surəsində qeyd edilir ki, dində məcburiyyət yoxdur. Yəni, ayinləri kiməsə məcburi surətdə qəbul etdirmək olmaz. İslamda həmçinin digər dinlərə mənsub şəxslərin ibadət yerlərinə də hörmətlə yanaşmaq buyurulur. Belə dəyərlər təkcə insanlar arasında deyil, eyni zamanda dövlətlərarası münasibətlərin də tənzimlənməsində böyük rol oynayır”.

Millət vəkili, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov qeyd edib ki, birgəyaşayış sağlam ictimai münasibətlər mühitinin formalaşması, fərdi və sosial planda təhlükəsizliyin təmin olunması üçün əvəzedilməz dəyərdir. Təsadüfi deyil ki, birgəyaşayış demokratik və multikultural cəmiyyətimizin əsas dəyərlərindən biri kimi, ölkəmiz üçün də əhəmiyyəti gedərək artan məsələlərdəndir.

C.Məmmədov beynəlxalq simpoziumun işinə uğurlar arzulayıb.

İzmir Katip Çelebi Universitetinin rektoru, professor Saffet Köse, “Nur-Mübarək” Misir İslam Mədəniyyəti Universitetinin rektoru, professor Məhəmməd əl-Şəhhat əl-Cindi, Müsəlman İnstitutunun sədri Sahibzada Sultan Ahmed Ali, Bolqar İslam Akademiyası rektorunun köməkçisi Rustem Gilmutdinov, Bakı Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin aparıcı məsləhətçisi Araz Qurbanov çıxış edərək bildiriblər ki, “İslam mədəniyyətində birgəyaşayış təcrübəsi” mövzusunda beynəlxalq simpozium İslam mədəniyyəti kontekstində müsəlman aləmində birgəyaşayışla əlaqədar tarixi təcrübə və nümunələri araşdıraraq gələcək nəsillərin doğru istiqamətdə addımlamasına öz töhfəsini verəcəkdir.

**(Ardı 18-ci səhifədə)**

# Beynəlxalq simpozium keçirilib

(Əvvəli 17-ci səhifədə)

* * *

“İslam mədəniyyətində birgəyaşayış təcrübəsi” mövzusunda keçirilən beynəlxalq simpozium 21 sentyabr 2022-ci il tarixdə panellərlə davam edib.

Panellər f.e.d., dos. Zəkiyyə Əbilova, f.f.d., dos. Əhməd Niyazov, dr. Adem Yıldırım, f.f.d., dos. Gülçöhrə Seyidova, f.f.d., dos. Anar Qafarov, i.f.d., dos. Elnurə Əzizova, prof. Şahin Ahmetoğlu, f.f.d., dos. İlkin Əlimuradov, prof. Abdurrahman Candan və prof. Zekeriya Akmanın moderatorluğu ilə baş tutub.

Dünyanın müxtəlif ölkələrindən çıxış edən alimlərin məruzələri onlayn və oflayn formatda dinlənilib.

Beynəlxalq simpoziumda “İslam tarihinde birlikte yaşama kültürünün ilk örneği olan sahabe toplumunda etnik yapı”; “İslam tolerantlıq və başqasını qəbuletmə dinidir... Sülh şəraitində yaşamağa mədəni baxış”; “Farklı, benzer ve bütünleştirici yönleriyle insanın birlikte yaşama kültürüne katkısı”; “Birlikte yaşamanın dini ve ahlaki esasları”; “İslam mədəniyyətində birgəyaşayış fəlsəfəsi: qeyb və mövcudluq monodünyasından aşkar və varlıq multidünyasına doğru”; “Birgəyaşayış ənənəsini formalaşdıran mənəvi dəyərlər: İslam əxlaq fəlsəfəsi müstəvisində”; “İslamda tolerantlıq ideyasının nəzəri məsələləri və tarixi təcrübə”; “Qurani-Kərimin ayələri kontekstində birlikdə yaşama hüququ”; “Birgəyaşayış mədəniyyəti və onun fəlsəfi əsasları”; “Birlikte yaşamı mümkün kılan temel insan nitelikleri bağlamında bir değerlendirme”; “Quran təhsilinin dinc yanaşı yaşamağa təsiri”; “Niyetin Kur’vn öğretisindeki niteliği/-keyfiyeti ve değeri”; “Quranda birgəyaşayışın əhəmiyyəti”; “Gürcüstanda İslam təhsil müəssisələri: tarixi icmal və müasir reallıqlar”; “Diyanet hizmetlerinin Türkiye-Azerbaycan münasebetlerindeki rolü”; “Qurani-Kərimdə mötədillik nümunələri (təlim-təbliğ kontekstində)”; “İslamda əhlibeyt nümunəsində birgəyaşayış metodları”; “Xətib Təbrizinin “Şərhul-Müfaddaliyyat”ında (ixtiyarat) müxtəlif dinlərə etiqad göstərən şairlər”; “Azerbaycan ve Anadolu türklerinin mezhepler arası yakınlaşma kültürüne katkısı bakımından maktel edebiyatı”; “Qəzzalinin təkfir məsələsinə ontoloji-hermenevtik yanaşma”; “Sosial həmrəylik mənəvi birliyə aparan yol kimi”; “Qurani-Kərim və birgəyaşayış mədəniyyəti”; “İslam medeniyetinde birlikte yaşama kültürünün oluşumunda fıkho bir dinamik olarak örf’ün yeri” və digər mövzularda məruzələr dinlənilərək müzakirələri aparılıb.

Qeyd edək ki, “İslam mədəniyyətində birgəyaşayış təcrübəsi” mövzusunda beynəlxalq simpozium iki gün davam edib. Tədbirdə 100-ə qədər məruzəçinin məruzələri 10 paneldə dinlənilib.

* * *

Azərbaycan İlahiyyat İnstitutunun Mənəvi Dəyərlərin Təbliği Fondu, Kırıkkale Universitetinin İslam elmləri fakültəsi və İslam Ölkələri Tədqiqat Mərkəzi ilə birgə təşkil etdikləri “İslam mədəniyyətində birgəyaşayış təcrübəsi” mövzusunda beynəlxalq simpozium 21 sentyabr 2022-ci il tatixdə öz işini uğurla yekunlaşdırıb.

Bağlanış nitqi ilə çıxış edən Aqil Şirinov ikigünlük simpoziumun önəmli mövzuya həsr olunduğunu söyləyərək, tədbirdə iştirak edən elm adamlarına təşəkkür edib. O, qeyd edib ki, birgəyaşayış ənənəsini müxtəlif aspektlərini özündə ehtiva edən – İslam mədəniyyətində birgəyaşayış prinsipinin konseptual çərçivəsi; birgəyaşayışın vacibliyi; birgəyaşayış mədəniyyətini gücləndirən amillər; cəmiyyətlərdə birgəyaşayış təcrübəsi; birgəyaşayış mədəniyyətinə töhfə verən nümunəvi şəx-



siyyətlər; birgəyaşayış qarşısında duran maneələr; müsəlman təfəkküründə cəmiyyət anlayışları; qloballaşmanın birgəyaşayışa təsiri və s. mövzularda məruzələrlə çıxış edən alimlərin bu çıxışları gələcəkdə kitab şəklində çap olunacaq. A.Şirinov daha sonra vurğulayıb ki, İslamı terror dini kimi göstərməyə çalışanların niyyətlərinin saf olmadığı bu simpoziumda dəyərli alimlərin təqdim etdikləri tezislərlə səhv mövqedə olduğunu bir daha üzə çıxarılmışdır. Həmçinin bu tezislər dinimizin tolerantlığını bir daha nümayiş etdirir.

AİI rəhbəri qeyd edib ki, məruzələrdən də məlum olduğu kimi, İslam dünyasında tarixən birgəyaşayış mövcud olmuşdur. Bu ənənənin ən gözəl nümunəsinin öl-



kəmizdə mövcud olduğunu diqqətə çatdıran A.Şirinov Azərbaycanda müxtəlif dinlərin, konfessiyaların, fərqli məzhəblərin nümayəndələrinin birlikdə yaşadıqlarının şahidi oluruq. Onlar arasında ictimai, dini zəmində hər hansı münaqişənin olmadığını görürük. Hazırda cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətində ölkəmizdə mövcud olan birgəyaşayış ənənəsinin qorunmasına xüsusi önəm verilir.

Dini Dəyərlərin Təbliği Fondunun icraçı direktoru, i.f.d Mehman İsmayılov tədbirin ərsəyə gəlməsində əməyi olan hər kəsə təşəkkürünü bildirib. Ölkəmizdə birgəyaşayış ənənəsinin tarixinin qədim olduğunu diqqətə çatdırıb.

Daha sonra simpoziumun məqsədini diqqətə çatdıran M.İsmayılov tədbirin İslam mədəniyyəti kontekstində Azərbaycan və Türkiyə arasında birgəyaşayışla bağlı mövcud imkanları müəyyənləşdirdiyini diqqətə çatdırıb. O vurğulayıb ki, bu sahədə çalışan mütəxəssis və elmi tədqiqatçıların məqalələri birgəyaşayış ənənəsinin əhəmiyyətini gələcək nəsillərə ötürməkdə xüsusi rola malik olacaq.



Kırıkkale Universiteti İslam elmləri fakültəsinin dekanı, professor Mevlüt Erten təşkilatçılara təşəkkürünü bildirib. Qeyd edib ki, simpoziumda səsləndirilən tezislərə nəzər saldıqda, tədbirin birgəyaşayış ənənəsini müxtəlif aspektlərdən araşdırıldığının şahidi oluruq. O bildirib ki, nəşr olunacaq simpozium materialları bu



ənənənin qorunması və gələcək nəsillərə çatdırılması baxımından xüsusi yerə malik olacaq.

Kırıkkale Universiteti İslam Ölkələri Tədqiqat Mərkəzinin müdiri, professor Zekeriya Akman simpoziumda müxtəlif dinlərin və məzhəblərin nümayəndələrinin olduqlarını diqqətə çatdıraraq vurğulayıb ki, bu nümunədə Azərbaycanda olan birgəyaşayış ənənəsinin şahidi olduq. Zekeriya Akman öl-



kəmizin ərazi bütövlüyünün qorunması uğrunda şəhid olanları yad edib, onlara Allahdan rəhmət diləyib.

Daha sonra çıxış edən İzmir Katip Çelebi Universitetinin rektoru, professor Saffet Köse, "Nur-Mübarək" Misir İslam Mədəniyyəti Universitetinin rektoru, professor Məhəmməd əl-Şəhhat əl-Cindi, Müsəlman İnstitutunun sədri Sahibzada Sultan Ahmed Ali, Kırıkkale Universiteti İslam Ölkələri Tədqiqat Mərkəzinin müdir müavini, professor Şahin Ahmetoğlu, Şimali Qafqazda dini-mənəvi dəyərlər, onların mədəni spesifikliyinin müqayisəli tədqiqi üzrə UNESCO kafedrasının bölmə rəhbəri, f.f.d., dos. Gülçöhrə Seyidova "İslam mədəniyyətində birgəyaşayış təcrübəsi" mövzusunda beynəlxalq simpoziumun təşkilatçılarına minnətdarlıqlarını bildiriblər. Tədbirdə dinlənilən tezislərin hər biri yüksək qiymətləndirilib.

Simpoziumun sonunda qonaqlara hədiyyələr təqdim olunub.

Qeyd edək ki, iki gün davam etmiş beynəlxalq simpozium açılış mərasimi və panellərlə davam edib.



**(Ardı 20-ci səhifədə)**

# Beynəlxalq simpozium keçirilib

(Əvvəli 19-cu səhifədə)

Tədbirdə 100-dən çox məruzəçinin məruzələri 10 paneldə dinlənilib. Konfransın materiallarının kitab şəklində çap olunması nəzərdə tutulur.

"İslam mədəniyyətində birgəyaşayış təcrübəsi" mövzusunda beynəlxalq simpozium iştirakçıları Heydər Məscidini və "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunu ziyarət ediblər.

Heydər Məscidini ziyarət zamanı qonaqlara məlumat verilib ki, 2014-cü ilin dekabrında açılışı keçirilən dini ibadət müəssisəsi Qafqazın ən böyük məscididir. Milli-mənəvi irsə böyük diqqət və qayğı ilə yanaşan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə inşa olunan bu yeni məscid 12 min kvadratmetr sahəni əhatə edir. Məscidin fasadı Şirvan-Abşeron memarlıq üslubunda xüsusi daşlarla üzlənib, ornamentlərin zənginliyi fasadda arxitektura harmoniyası yaradıb, həmçinin 95 metr hündürlüyündə 4 minarə inşa olunub. Məscidin daxili xüsusi bəzək elementləri ilə dizayn edilib, günbəzin kənarlarına Quran ayələri həkk olunub. Əlli beş metr ucalığında olan baş günbəz, o cümlədən, hündürlüyü 35 metrə çatan ikinci günbəz məscidə xüsusi gözəllik verir.



Qonaqlara, eyni zamanda, məsciddə qılınan vəhdət namazları barədə də məlumat verilib. Heydər Məscidində Vəhdət namazının ənənə halı aldığı, dini dözümsüzlüyün, irqi ayrıseçkiliyin və islamofobiyanın geniş yayıldığı müasir dövrümüzdə bunun bir nümunə təşkil etdiyi bildirilib.

Daha sonra Qoşa Qala küçəsindən başlayan "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunu gəzinti zamanı qonaqlara tarixi heykəltəraşlıq binaları, meydan və Qala divarları haqqında məlumat verilib. Qonaqlar Sıratağlı Dini-Memarlıq Kompleksi (Bazar meydanı) ərazisindəki müxtəlif dövrlərə aid bədii daşyonma sənət nümunələrini müşahidə ediblər. Karvansara ilə tanışlıq zamanı bu abidələrin Azərbaycanın Şərq ölkələri ilə zəngin tarixi, iqtisadi-mədəni əlaqələrinin göstəricisi olduğu bildirilib.

Sonda konfrans iştirakçıları tarix-memarlıq nümunəsi olan "Qız Qalası"nın önündə xatirə şəkli çəkdiriblər.

Tədbirin materiallarının kitab halında çap olunması nəzərdə tutulur.

Qeyd edək ki, simpoziumun keçirilməsində məqsəd – İslam mədəniyyəti kontekstində fərqli din nümayəndələrinin birgəyaşayışı ilə bağlı vəziyyəti müzakirə etmək; müsəlman cəmiyyətləri arasında bu istiqamətdə mövcud təcrübələrdən yararlanmaq və onları təşviq etmək; müvafiq sahə üzrə mütəxəssis və araşdırmaçıların verdikləri töhfələri üzə çıxarmaq, qorumaq və gələcək nəsillərə ötürmək; həmin istiqamətdə elmi, siyasi, ictimai və fərdi tədqiqatların artırılmasına zəmin yaratmaqdır.



# Amerikalı tədqiqatçı məruzə edib



Amerikalı dinşünas tədqiqatçı Ceyzn Con Batler 21 sentyabr 2022-ci il tarixində Azərbaycan İlahiyyat İnstitutunda "Rəbb izzətə layiqdir" mövzusunda məruzə edib.

AİI İlahiyyat fakültəsinin dekanı, dosent Elnurə Əzizova məruzəçini təqdim edərək, müxtəlif dinlərin tədris və tədqiq olunduğu ali təhsil müəssisəsində yerli və əcnəbi elm xadimlərinin məruzələrinin dinlənilməsinin bir ənənəyə çevrildiyini bildirib.

Daha sonra çıxış edən Ceyzn Con Batler müasir dövrdə dinlərarası münasibətlərin inkişafında mühüm rolu olan ortaq dini dəyərlərin tədqiq olunmasının vacibliyini qeyd edib. O bildirib ki, dünyanın iki ən geniş yayılmış İslam və Xristianlıq dinlərində dövlətlərarası və mədəniyyətlərarası zəmində münasibətlərin müsbət inkişafına töhfə vermək qlobal səviyyəli dinmənşəli münaqişələrin həlli üçün böyük əhəmiyyət kəsb edir. Mövzu ilə əlaqəli olaraq məruzəçi Quranmənşəli "Allahu-Əkbər" konsepsiyası ilə Zəburmənşəli "Rəbb izzətə layiqdir" konsepsiyalarının müqayisəli təhlilini apararaq, həm müsəlmanların, həm də xristianların həyatındakı bu amilin rolundan bəhs edib.

Qeyd edək ki, tədbirin sonunda İnstitut tələbələrinin mövzu ilə əlaqəli sualları cavablandırılıb.

# Rektor tələbələrlə görüşüb





Azərbaycan İlahiyyat İnstitutunun rektoru, dosent Aqil Şirinov 30 sentyabr 2022-ci il tarixində IV kurs tələbələri ilə görüşüb.

Rektor A.Şirinov tələbələrə tədrisin sonuncu ilində olduqlarını bildirərək, onlara dərslərinə daha məsuliyyətlə yanaşmağı, dil bilgilərinə yiyələnməyi, təşkil edilən kurslarda fəal olmağı tövsiyə edib. İnstitutun dövlətin diqqət və qayğısı ilə tam əhatə olunduğunu diqqətə çatdıran rektor vurğulayıb ki, tələbələrimiz bu imkanlardan istifadə etməli, biliklərini təkmilləşdirərək yüksəkixtisaslı kadrlar kimi yetişməlidirlər.

AİI rəhbəri daha sonra vurğulayıb ki, ali təhsil müəssisəsi yüksəkixtisaslı kadr hazırlığını, insan kapitalının formalaşdırılmasını özünün prioritet vəzifələrindən biri kimi müəyyənləşdirir.

A.Şirinov Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən "İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadiminin təyin olunması, attestasiyası və tutduğu vəzifədən azad edilməsi Qaydası"na uyğun olaraq, 24 may 2022-ci il tarixində elan edilmiş müsahibədə iştirak edən, din xadimi təyin olunan məzunlarımız haqqında da məlumat verib. Bildirib ki, ali təhsil müəssisəsinin məqsədi sizin timsalınınızda cəmiyyətə savadlı, yüksək intellektə, geniş dünyagörüşə malik, sağlamdüşüncəli, Vətənini sevən, milli məfkurəyə sahib, milli-mənəvi dəyərlərimizi qoruyan din xadimləri təqdim etməkdir.

İnstitut rektoru bildirib ki, tələbələr ölkəmizin inkişafı, daha da çiçəklənməsi naminə üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməli, milli-mənəvi dəyərlərimizi birləşdirici ünsür olaraq cəmiyyətə təbliğ etməlidirlər.

Tədbirdə tələbələrin tədris prosesi, təlim, təhsil və sosial məsələlər ətrafında sualları cavablandırılıb.

# Rektor müəllimlərlə görüşüb

Azərbaycan İlahiyyat İnstitutunun rektoru, dosent Aqil Şirinov 5 oktyabr 2022-ci il tarixində Müəllimlər Günü münasibətilə müəllimlərlə görüşüb.

İnstitut rəhbəri Aqil Şirinov öncə yeni tədris ilinin başlanması və 5 Oktyabr – Müəllimlər Günü münasibətilə bütün müəllimləri təbrik edib. Təhsilin cəmiyyət və xalq üçün böyük əhəmiyyət kəsb etdiyini vurğulayan rektor ümummilli lider Heydər Əliyevin təhsil haqqında fikirlərini bölüşüb: "Cəmiyyət təhsilsiz inkişaf edə bilməz. Təhsilsiz xalq müasir şəraitdə öz imkanlarını həyatına sərf etmək üçün çox problemlərlə rastlaşar".

A. Şirinov daha sonra ali təhsil müəssisəsi qarşısında duran məqsəd və hədəflərdən söhbət açıb. Bildirib ki, Aİİ müəllimləri tələbələrlə təkcə auditoriyalarda deyil, dərslərdənkənar vaxtlarda da ünsiyyət saxlamalı, onların tədrislə bağlı problemlərinin həllində yardım etməlidirlər.

Tədrisin keyfiyyətinin daha da yüksəldilməsi haqqında fikirlərini bölüşən rektor bildirib ki, Aİİ-də dərslərin, xüsusilə dil fənlərinin səmərəliliyinin artırılması üçün əlavə kurslar təşkil edilir. Müəllimlərin bu kurslarda təmənnasız iştirak etdiyini bildirən A.Şirinov onlara dərin minnətdarlığını bildirib.

Aİİ rəhbəri elmi-tədqiqatların keyfiyyətinin yüksəldilməsi, professor-müəllim heyətinin fəaliyyətinin artırılması məsələsinə də toxunub.

Tədbirdə Aİİ-nin yüksəkixtisaslı mütəxəssis kadrların hazırlanmasında səmərəli fəaliyyəti ilə fərqlənən müəllimlərə hədiyyələr təqdim olunub.









# Şəhid Vüqar Məmmədovun Anım Günü - 7 oktyabr 2022

Azərbaycan İlahiyyat İnstitutunda 7 oktyabr 2022-ci il tarixində İlahiyyat fakültəsinin məzunu, 44 günlük Vətən müharibəsində şəhid olmuş Vüqar Məmmədovun Anım Günü tədbiri keçirilib.

Tədbirdə AİI-nin rəhbər heyəti və əməkdaşları, tələbələr, o cümlədən şəhidin döyüş yoldaşları, qazilər iştirak ediblər.

Öncə dövlətimizin ərazi bütövlüyü uğrunda şəhid olanların ruhu





birdəqiqəlik ehtiram sükutu ilə yad edilib. Daha sonra AİI-nin III kurs tələbəsi Kənan Əliyev tərəfindən şəhidlərimizin ruhuna Quran tilavəti təqdim edilib.

Azərbaycan İlahiyyat İnstitutunun rektoru, dosent Aqil Şirinov Anım Günü tədbirində çıxış edərək Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan bayrağını işğaldan azad olunan torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizi, bütün şəhidlərimizi dərin ehtiramla yad edib. Rektor 44 günlük Vətən müharibəsində güclü Xalq, güclü Dövlət və məğrur Ali Baş Komandanın birgə mübarizəsinin qələbəni şərtləndirən əsas amil olduğunu qeyd edib.

Ali təhsil müəssisəsinin rəhbəri şəhid Vüqar haqqında xatirələrini bölüşərkən tələbələrə bildirib ki, Vüqar vətənpərvərliyin, cəsarətin və əxlaqın nümunəsidir. Gənclərimiz belə oğullarımızın göstərdikləri şücaəti, qəhrəmanlığı özlərinə örnək olaraq götürməlidirlər.

Azərbaycan İlahiyyat İnstitutunun tələbəsi şəhid Vüqar Məmmədovun anası Əsmər Məmmədova oğlunun ordu sıralarına könüllü qoşulduğunu qeyd edib. Şəhid anası onun keçdiyi döyüş yolundan bəhs edib.

Şəhid Vüqar Məmmədovun döyüş yoldaşı İsmayıl Məsimli keçdikləri döyüş yolundan, şəhidin şücaətlərindən söhbət açıb.

Azərbaycan İlahiyyat İnstitutunun müəllimi, AİI Həmkarlar İttifaqı Komitəsinin sədri Ənvər Mustafayev Xüsusi Təyinatlı Qüvvələrdə xidmət edən 44 günlük Vətən müharibəsi iştirakçıları barədə məlumat verib. Onların torpaqlarımızın azadlığı uğrunda keçdikləri döyüş yolundan, şücaətlərindən danışıb. Ə.Mustafayev xüsusi vurğulayıb ki, Vətənimizin azadlığı uğrunda canlarından keçən şəhidlərimizi hər günümüzdə xatırlayaq, onların göstərdikləri şücaətləri auditoriyada keçdiyimiz hər dərsdə gənclərə xatırladaq.

Qeyd edək ki, Ə.Mustafayev Vətən müharibəsində böyük şücaətlər göstərmiş, dövlət tərəfindən çox sayda medallarla təltif olunan Feyzi Mustafayevin qardaşıdır.



Ailə üzvlərinin bir neçəsi döyüş meydanlarında böyük şücaətlər göstərmiş Azərbaycan İlahiyyat İnstitutunun müəllimi Qafqaz Abdurahmanov isə keçirdikləri hissləri bölüşüb. Şəhidlərin və qazilərin keçdikləri döyüş yolundan, xatirələrindən söhbət açıb.

Sonda şəhid Vüqar Məmmədovun ruhuna ehsan süfrəsi verilib.

# Peyğəmbərin Mövlud Günü tədbiri



Azərbaycan İlahiyyat İnstitutunda 12 oktyabr 2022-ci il tarixində Həzrət Peyğəmbərin mövludu ilə əlaqədar tədbir keçirilib.

Tədbirdə çıxış edən Aİİ rektoru Aqil Şirinov Peyğəmbərin insanlara qarşı dözümlülüyü, vəhdəti, gözəl əxlaqı və humanizmi təbliğ etdiyini, müsəlman cəmiyyətlərinin də bu prinsiplərə sadiq qalmalarının vacibliyinə toxunub.

Məruzəçi, AİI-nin İslamşünaslıq kafedrasının müdiri Əhməd Niyazov “Tarixdə mövlud ənənəsi” mövzusunda çıxış edib. Tarixdə mövlud ənənəsindən, ədəbiyyatda bu mövzuda mövcud olan qəsidələrdən bəhs edib.

AİI İslamşünaslıq kafedrasının baş müəllimi Vüqar Səmədov “Həzrət Peyğəmbər – əxlaq mücəssəməsi kimi” mövzusunda çıxış edərək, Peyğəmbərin əxlaqından, cəmiyyətdə sağlam mühitin formalaşmasındakı rolundan söhbət açıb.

# Vasim Məmmədəliyevin xatirəsi yad edilib




Azərbaycan İlahiyyat İnstitutunda 13 oktyabr 2022-ci il tarixində ölkə şərqşünaslığının ən görkəmli nümayəndələrindən biri – “Şöhrət” ordenli, Əməkdar elm xadimi, akademik Vasim Məmmədəliyevin vəfatının ildönümünə həsr olunmuş tədbir keçirilib.

Açılış nitqi ilə çıxış edən AİI rektoru, dosent Aqil Şirinov Vasim Məmmədəliyevin dünya və Azərbaycan elmlərinə bəxş etdiyi töhfələr və yüksək xidmətləri barədə ətraflı söz açıb.

Akademikin tərcümə etdiyi Qurani-Kərimin Azərbaycan dilində mükəmməl nümunə olduğunu xüsusi vurğulayıb. Rektor mərhum akademikin həyatı və elmi fəaliyyəti barədə də geniş məlumat verib.

V.Məmmədəliyevin Bakı Dövlət Universiteti (BDU) İlahiyyat fakültəsinin fəaliyyətində xüsusi rolunu vurğulayan A.Şirinov mərhum akademikin yetişdirdiyi tələbələrin yüksəkixtisaslı olduqlarını, savadlı kadrlar kimi mühüm vəzifələrdə işlədiklərini qeyd edib.

Xalq artisti, professor Vamiq Məmmədəliyev söz alaraq, qardaşının bir alim kimi formalaşmasında ailəsinin – ata və anasının xüsusi rolu olduğunu vurğulayıb. Azərbaycan Prezidentinin və Birinci vitse-prezident Mehriban Əliyevanın Vasim Məmmədəliyev irsinə verdiyi dəyəri xüsusi qiymətləndirib.

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov çıxışında tələbəlik illərindən xatirələrini bölüşüb. Mərhum akademikin milli-mənəvi dəyərlərə önəm verən gənclərin vətənpərvər ruhda yetişmələrində xüsusi rolu olduğunu qeyd edib.

Azərbaycan İlahiyyat İnstitutunun Elm və innovasiyalar üzrə prorektoru, dosent Mirniyaz Mürsəlov akademik haqqında həm elmi rəhbəri, həm dekanı, həm də müəllimi kimi xatirələrini bölüşüb. Qeyd edib ki, Vasim Məmmədəliyev cəmiyyətə faydalılığı ilə ali dəyərə çevrilib.

AMEA Əlyazmalar İnstitutu Ərəbdilli əlyazmaların tədqiqi şöbəsinin aparıcı elmi işçiləri – fəlsəfə elmləri doktoru Zəkiyə Əbilova və fəlsəfə üzrə fəlsəfə doktoru Rübabə Şirinova elmi rəhbərləri olan Vasim Məmmədəliyev haqqında xatirələrini bölüşüb, alimin tələbələrinə verdiyi dəyərə diqqət çəkiblər.

Mərhum akademikin ailəsi adından çıxış edən qızı Sunay Məmmədəliyeva atasının xatirəsini əziz tutan, hər zaman xatırlayan, vəfatının ildönümündə belə tədbirin keçirilməsinə görə AİI rəhbərliyinə dərin təşəkkürünü bildirib.

# Müəllimlər beynəlxalq simpoziumda





Azərbaycan İlahiyyat İnstitutunun müəllimləri 17 oktyabr 2022-ci il tarixində Almaniyada beynəlxalq elmi tədbirdə iştirak ediblər.

AİI İlahiyyat fakültəsinin dekanı – i.f.d., dos. Elnurə Əzizova və dekan müavini – f.f.d. Kövsər Tağıyev Almaniyanın Freyburq Universitetinin təşkilatçılığı ilə keçirilən “Milli dövlətlər və Quran: postsovet məkanında tərcüməçilər, anlatılar və müzakirələr” mövzusunda beynəlxalq simpoziumda iştirak ediblər.

Dosent E.Əzizova “Postsovet məkanında Qurana əsaslanan “Siyər” təsəvvürü: azərbaycanca Quran tərcümələri kontekstində Məhəmməd peyğəmbərin bioqrafiyası” mövzusunda məruzə ilə çıxış edib. O, çıxışında Quranın Azərbaycan dilinə tərcümələrində erkən İslam tarixinə baxış və Məhəmməd peyğəmbər dövrünün siyasi, iqtisadi, ictimai və mədəni hadisələrinin necə əks olunduğunu müqayisəli təhlil edib.

F.f.d. Kövsər Tağıyev “Postsovet Azərbaycanında Quran tərcümələri və tərcümə prosesinin əsas xüsusiyyətləri” mövzusunda məruzə ilə çıxış edib. O, çıxışında Azərbaycanın müstəqillik əldə etməsinin ardından Quranın tərcümə və şərhlərinin yazılması prosesini də işıqlandırıb.

# Ebru sənəti kursları



Azərbaycan İlahiyyat İnstitutunda 27 oktyabr 2022-ci il tarixdən Ebru sənəti kursları təşkil edilib. Ödənişsiz təşkil olunan kurslarda AİI-nin tələbələri iştirak edirlər.

Su üzərində rəsm sənəti kimi böyük şöhrət qazanmış ebrunun tarixi çox qədimdir. Ebruda istifadə olunan bütün boyalar torpaqdan əldə edilir. Ebru sənətinin bir neçə növü vardır. Bunlardan ən məşhuru sənətkarın adı ilə bağlı olan Battal üsuludur.

Məlumat üçün bildiririk ki, ali təhsil müəssisəsi tələbələrin dünyagörüşlərinin, intellektual səviyyələrinin, mənəvi dünyalarının zənginləşdirilməsi, elmi axtarışlara sövq edilməsi, vətənpərvərlik hisslərinin gücləndirilməsi, mütaliə, sosial məsuliyyət vərdişlərinin aşılanması, o cümlədən, fərdi özünüifadə bacarıqlarının inkişaf etdirilməsi istiqamətində ardıcıl seminarlar, konfranslar, görüşlər və kurslar təşkil edir.

# “İcbari tibbi sığorta” mövzusunda tədbir

İlahiyyat İnstitutunda 28 oktyabr 2022-ci il tarixdə “İcbari tibbi sığorta” mövzusunda tədbir keçirilib.



Agentliyin Marketinq və ictimaiyyətlə əlaqələr departamentinin əməkdaşı Fuad Babayev tədbir iştirakçılarına icbari tibbi sığorta haqqında ümumi məlumat verib. Məruzəçi icbari tibbi sığorta haqları, icbari tibbi sığortanın Xidmətlər Zərfinə daxil olan tibbi xidmətlər, icbari tibbi sığorta çərçivəsində tibbi xidmətlərdən istifadə qaydaları haqqında danışıb. O, TƏBİB-in tabeliyindəki dövlət tibb müəssisələri barədə ümumi məlumat verərkən, Agentliyin müqavilə bağladığı özəl tibb müəssisələrinin siyahısını və özəl tibb qurumlarında icbari tibbi sığortadan istifadə qaydalarını da nəzərə çatdırıb.

Qeyd edək ki, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tibbi sığortanın təbliği və bu sahədə əhalinin maarifləndirilməsi istiqamətində tədbirlər həyata keçirir.

# Rektor İsveçrə Konfederasiyasında

Azərbaycan İlahiyyat İnstitutunun rektoru, dosent Aqil Şirinov 19 oktyabr 2022-ci il tarixində İsveçrə Konfederasıyasının Cenevrə şəhərində təşkil olunan "Birlikdə yeni körpülərin qurulması: keyfiyyətli təhsilin əsasında mənəviyyat və dəyərlər" mövzusunda beynəlxalq simpoziumda iştirak edib.

"Globethics.net" qlobal təhsil müəssisələri şəbəkəsi, Cenevrə Mənəvi Xidmət Dərnəyi və Cenevrə Geostrateji Müşahidə Mərkəzinin birgə təşkilatçılığı ilə təşkil olunan konfransın plenar iclasında Aİİ rektoru Aqil Şirinov, "Globethics.net" qlobal təhsil müəssisələri şəbəkəsinin təsisçisi və prezidenti Christoph Stückelberger, "Globethics.net" qlobal təhsil müəssisələri şəbəkəsinin icraçı direktoru Obiora İke, Müqəddəs Taxt-tacın nümayəndəsi və Vatikanın Cenevrədəki BMT təsisatlarında səfiri, arxiyepiskop Fortunatus Nwachukwu, Birləşmiş Krallıq-Nigeriya İnfrastrukturu üzrə Məsləhət Mərkəzinin (UKNIAF) direktoru Chidiebere R.Onyia, Distant Təhsil üzrə Beynəlxalq Şuranın İdarə Heyətinin sədri professor Ebba Ossiannilsson, Ümumdünya Kilsələr Şurası (WCC) baş katibinin müavini professor İsabel Phiri, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı İnsan Hüquqları üzrə Təhsil və Təlim Bölməsinin koordinatoru Elena İppoliti və Anne Burghardt – Ümumdünya Lüteran Federasiyasının Baş katibi çıxış ediblər.

Aİİ rektoru Aqil Şirinov plenar iclasdakı çıxışında dünyada qlobal dəyərlər baxımından yeni körpülərin qurulmasına indi daha çox ehtiyac duyulduğunu bildirib. Radikalizmin ən böyük səbəbinin məlumatsızlıq olduğunu qeyd edən rektor vurğulayıb ki, onun ən böyük düşməni bilikdir, öyrənməkdir: "Təhsil sistemi məlumatsızlığın, bilgisizliyin aradan qaldırılmasına, müxtəlif millətlərə və dinlərə mənsub insanlar arasında körpü qurmaqda əhəmiyyətli rol oynayır. Məktəblərdə və universitetlərdə təhsilalanlara onların mədəniyyətləri haqqında daha çox məlumat verilməli, həmçinin humanizmi formalaşdıran ortaq dəyərlər aşılanmalıdır".

Qeyd edək ki, beynəlxalq konfransda Almaniya, İsveçrə, Bolqarıstan, Fransa, Böyük Britaniya, Portuqaliya, İsveç, Kuba, Kolumbiya, Argentina, ABŞ, Hindistan, Vyetnam, İndoneziya, Livan, Filippin, Nigeriya, Keniya, Efiopiya, Mərakeş, Əlcəzair, Mavriki, Malavi, Cənubi Afrika, Toqo, Qana, Ruanda dövlətlərindən nümayəndələr iştirak ediblər.

***

Azərbaycan İlahiyyat İnstitutunun rektoru, dosent Aqil Şirinov 20 oktyabr 2022-ci il tarixində İsveçrə Konfederasıyasının Cenevrə şəhərində təşkil olunan "Birlikdə yeni körpülərin qurulması: keyfiyyətli təhsilin əsasında mənəviyyat və dəyərlər" mövzusunda beynəlxalq simpoziumda paneldə çıxış edib.



"Ali təhsil və beynəlmiləlləşmə" mövzusunda təşkil olunan paneldə Aİİ rektoru Aqil Şirinov "Dözümsüzlüyün aradan qaldırılmasında dini təhsilin rolu: Azərbaycan İlahiyyat İnstitutu təcrübəsində" adlı məruzə edib. A.Şirinov çıxışında din təhsilinin formaları haqqında danışarkən təmsil etdiyi ali təhsil müəssisəsinin tədris prosesi barədə geniş məlumat verib. İnstitutda təhsil iki istiqamət – islamşünaslıq və dinşünaslıq üzrə həyata keçirilir.

Aİİ-də tədris olunan fənlər haqqında məlumat verən rektor vurğulayıb ki, İnstitutda teoloji təhsildə İslamın müəyyən bir məktəbi əsas götürülmür, bütün İslam məktəblərinin görüşləri haqqında təsviri biliklər verilir. Demək olar ki, Azərbaycan İlahiyyat İnstitutundakı tədris metodu bu baxımdan müsəlman dünyasındakı təhsil müəssisəsələri arasında unikal modellərdən biridir. Həmçinin böyük dünya dinləri haqqında da deskriptiv metodla məlumatveririlir.

Qeyd edək ki, "Globethics.net" qlobal təhsil müəssisələri şəbəkəsi, Cenevrə Mənəvi Xidmət Dərnəyi və Cenevrə Geostrateji Müşahidə Mərkəzinin birgə təşkilatçılığı ilə təşkil olunan beynəlxalq konfransda Alma-

# beynəlxalq simpoziumda

niya, İsveçrə, Bolqarıstan, Fransa, Böyük Britaniya, Portuqaliya, İsveç, Kuba, Kolumbiya, Argentina, ABŞ, Hindistan, Vyetnam, İndoneziya, Livan, Filippin, Nigeriya, Kenya, Efiopiya, Mərakeş, Əlcəzair, Mavriki, Malavi, Cənubi Afrika, Toqo, Qana, Ruanda dövlətlərindən nümayəndələr iştirak ediblər.

***

Rektor Aqil Şirinov 21 oktyabr 2022-ci il tarixində İsveçrə Konfederasiyası Cenevrə Universiteti İlahiyyat fakültəsinin magistr tələbələri qarşısında mühazirə ilə çıxış edib.



Aqil Şirinov məruzəsində Azərbaycanın tolerant ölkə olduğunu, burada tarixən məscid, kilsə və sinaqoqların yanaşı fəaliyyət göstərdiyini, inanclı insanların ibadətlərini yerinə yetirməkdə azad olduqlarını diqqətə çatdırıb. O vurğulayıb ki, ölkəmizdə yaşayan müxtəlif millətlərə və dinlərə mənsub insanların mədəni müxtəlifliyinə, birgəyaşayış ənənəsinə dövlət səviyyəsində xüsusi diqqət göstərilir. Rektor Prezident İlham Əliyev tərəfindən ölkəmizdə dini dəyərlərə hörmət və qayğıya əsaslanan siyasətin həyata keçirildiyini diqqətə çatdırıb.

44 günlük Vətən Müharibəsi ilə işğal altında olan torpaqlarımızın işğaldan azad olunduğunu qeyd edən Aİİ rektoru Ermənistanın təcavüzkarlığına da toxunub. Bildirib ki, bu torpaqlarda bütün məscidlər, qəbiristanlıqlar vəhşicəsinə məhv edilib. Bütün bunlara baxmayaraq, paytaxt Bakıda hazırda erməni kilsəsinin fəaliyyət göstərdiyini və burada erməni dilində minlərlə kitabın qorunduğunu diqqətə çatdırıb.

Aİİ rektoru Aqil Şirinovun məruzəsi tələbələr tərəfindən maraqla qarşılanıb.

Qeyd edək ki, A.Şirinov İsveçrə Konfederasıyasının Cenevrə şəhərində təşkil olunan "Birlikdə yeni körpülərin qurulması: keyfiyyətli təhsilin əsasında mənəviyyat və dəyərlər" mövzusunda beynəlxalq konfransda iştirak edib.

***

Rektor Aqil Şirinov İsveçrə Konfederasiyasının Cenevrə şəhərinə səfəri zamanı 24 oktyabr 2022-ci il tarixində Azərbaycan Respublikasının BMT-nin Cenevrə şəhərindəki bölməsində və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi Qalib İsrafilov və Müqəddəs Taxt-tacın nümayəndəsi, Vatikanın bu ölkədəki BMT təsisatlarında səfiri, arxiyepiskop Fortunatus Nwachukwu ilə görüşüb.

Azərbaycan Respublikasının BMT-nin Cenevrə şəhərindəki bölməsində və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi Qalib İsrafilov ilə görüşü zamanı rektor A.Şirinov bildirib ki, ölkəmizdə mövcud multikultural və tolerant mühitin dünyaya tanıdılması, Aİİ-nin beynəlxalq əlaqələrinin genişləndirilməsi ali təhsil müəssisəsi qarşısında dayanan əsas istiqamətlərdən biridir.

Qalib İsrafilov Aİİ-yə gələcək fəaliyyətində uğurlar arzulayıb, qarşıda duran məqsəd və hədəflərin həyata keçirilməsində ali təhsil müəssisəsinə əlindən gələn köməkliyi əsirgəməyəcəyini bildirib.



Aİİ rəhbəri Müqəddəs Taxt-tacın nümayəndəsi və Vatikanın Cenevrədəki BMT təsisatlarında səfiri, arxiyepiskop Fortunatus Nwachukwu ilə görüşündə Azərbaycanla Vatikan arasında əlaqələrin yüksək səviyyədə olduğunu, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun bu sahədə mühüm xidmətlər göstərdiyini vurğulayıb.

**(Ardı 28-ci səhifədə)**

# Rektor İsveçrə Konfederasiyasında beynəlxalq simpoziumda

(Əvvəli 26 və 27-ci səhifələrdə)



İnstitut rektoru Müqəddəs Taxt-tacın nümayəndəsinə ali təhsil müəssisəsi haqqında məlumat verib. Bildirib ki, AİI-də "Dinşünaslıq" ixtisası üzrə təhsil alan tələbələrə səmavi dinlər barədə ətraflı bilgi aşılanır.

A.Şirinov, həmçinin Azərbaycanda müxtəlif dinlərin, konfessiyaların və xalqların nümayəndələrinin mehriban şəraitdə, bir ailə kimi yaşadıqlarını diqqətə çatdırıb.

Daha sonra bildirilib ki, Azərbaycan torpaqlarının otuzillik işğalı zamanı erməni vandalları ibadət ocaqlarımızı yerlə-yeksan edib. Ermənilərin viran qoyduğu ərazilər 44 günlük Vətən Müharibəsi ilə işğaldan azad edildikdən sonra, hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızda əsaslı bərpa və quruculuq işləri aparılır.

Müqəddəs Taxt-tacın nümayəndəsi və Vatikanın Cenevrədəki BMT təsisatlarında səfiri, arxiyepiskop Fortunatus Nwachukwu ölkəmizdə mövcud tolerant mühitə heyran qaldığını, belə multikultural mühitin dünyaya nümunə olduğunu vurğulayıb.

Arxiyepiskop Heydər Əliyev Fondunun və şəxsən Birinci vitse-prezident Mehriban Əliyevanın dəstəyi ilə Vatikandakı Müqəddəs Marçellinio və Pietro katakombalarının bərpa edilməsini minnətdarlıq hissi ilə yad edib və bildirib ki, bu, Azərbaycan dövlətinin tolerantlıq prinsiplərinə sadiqliyinin təcəssümüdür.

Görüş müzakirələrlə davam edib.

***

Aqil Şirinov İsveçrə Konfederasiyasının Cenevrə şəhərinə səfəri zamanı 25 oktyabr 2022-ci il tarixində Cenevrə Mənəvi Xidmət Dərnəyinin vitse-prezidenti Ventzeslav Sabev və Cenevrə Dinlərarası Dialoq Platformasının nümayəndələri ilə görüşüb.



AİI rəhbəri A.Şirinov görüşdə "Dini radikalizmə və zorakılığa təsir edən psixoloji amillər" mövzusunda məruzə ilə çıxış edib. İnstitut rəhbəri zorakılığın yaranmasına təsir edən amillər arasında insanın təbiəti ilə əlaqəli olanlarla yanaşı, uşaqlıq təcrübələri, insanlararası ictimai münasibətlər, eyni zamanda, sərt və radikal dünyagörüşü məqamlarının da olduğunu vurğulayıb. Məruzəçi radikal qruplara qoşulma prosesinin çoxyönlü xarakterə malik olduğu qeyd edərək, radikallaşma prosesini təkcə fərdi psixoloji xüsusiyyətlərlə açıqlamağa çalışan reduksionist nəzəriyyələrin mövzunu tam aydınlaşdıra bilmədiyini diqqətə çatdırıb.

Rektor iştirakçılara Azərbaycanda mövcud multikultural mühit barədə də məlumat verib. Bildirib ki, ölkədə multikulturalizm, tolerantlıq və dini dözümlülük dövlət siyasəti səviyyəsində inkişaf etdirilir.

A.Şirinov daha sonra qeyd edib ki, ölkəmizdə mövcud tolerant mühitin və dini həmrəyliyin bariz nümunəsini 44 günlük Vətən Müharibəsində müşahidə etdik. Həmin vaxt dinindən və etnik mənsubiyyətindən asılı olmayaraq bütün Azərbaycan vətəndaşlarının bir amal uğrunda, torpaqlarımızın azadlığı naminə birliyinin şahidi olduq.

AİI rektoru təmsil etdiyi ali təhsil müəssisəsi haqqında da geniş məlumat verib. İnstitutda mövcud ixtisaslar, təqaüd proqramları, ödənişsiz təhsil imkanları, ali təhsil müəssisəsinin beynəlxalq əlaqələri, xarici universitetlərlə bağlanılmış müqavilələr, müəssisədə keçirilən tədbirlər, konfranslar, həmçinin əldə olunmuş nailiyyətlər haqqında bəhs edib.

Görüş müzakirələrlə davam edib.

## Tələbələr kilsəni ziyarət ediblər



Azərbaycan İlahiyyat İnstitutunun "Dinşünaslıq" ixtisası üzrə təhsil alan   kurs tələbələri 1 noyabr 2022-ci il tarixində ali təhsil müəssisəsinin müəllimi, fəlsəfə üzrə fəlsəfə doktoru Aliyə Mürsəlovanın müşayiəti ilə Bakıdakı Ali-Mələk Mikayıl Kilsəsini ziyarət ediblər.

Kilsənin ziyarəti ölkəmizin dini müxtəlifliyinin öyrənilməsi çərçivəsində baş tutub.

Rəbbin Günü ibadətinin sonunda kilsənin baş keşişi, protoiyerey Mefodiy Əfəndiyev qonaqları səmimiyyətlə qarşılayıb və tələbələrə "sual-cavab" formatında Xristianlığın yaranması, əsasları, pravoslav kilsəsinin quruluşu, yerinə yetirilən ibadətlər və s. haqqında danışıb.

Məlumat üçün bildiririk ki, ali təhsil müəssisəsi tələbələrin dünyagörüşlərinin, intellektual səviyyələrinin, mənəvi dünyalarının zənginləşdirilməsi, elmi axtarışlara sövq edilmələri, vətənpərvərlik hisslərinin gücləndirilməsi, mütaliə, sosial məsuliyyət vərdişlərinin aşılanması, o cümlədən, fərdi özünüifadə bacarıqlarının inkişaf etdirilməsi istiqamətində ardıcıl seminarlar, konfranslar, görüşlər, səfərlər və kurslar təşkil edir.

## İnstitut tələbələri tarixi abidələri ziyarət ediblər



Azərbaycan İlahiyyat İnstitutunun "İslamşünaslıq" ixtisası üzrə  V kurs tələbələri 3 noyabr 2022-ci il tarixində Şirvanşahlar Saray Kompleksini və xəlvətilik təriqətinin azərbaycanlı nümayəndəsi, xəlvətiliyin ikinci Piri – Seyid Yəhya Şirvaninin (Bakuvi) qəbirüstü abidəsini ziyarət ediblər.

"Azərbaycanda təsəvvüf və təriqətlər" mövzusu ilə əlaqədar təşkil olunan ziyarətdə təhsil müəssisəsinin müəllimi, fəlsəfə üzrə fəlsəfə doktoru Qadir Səfərov tələbələrə geniş məlumat verib.

Məlumat üçün bildiririk ki, ali təhsil müəssisəsi tələbələrin dünyagörüşünün, intellektual səviyyəsinin, mənəvi dünyalarının zənginləşdirilməsi, elmi axtarışlara sövq edilməsi, vətənpərvərlik hisslərinin gücləndirilməsi, mütaliə, sosial məsuliyyət vərdişlərinin aşılanması, o cümlədən, fərdi özünüifadə bacarıqlarının inkişaf etdirilməsi istiqamətində ardıcıl seminarlar, konfranslar, görüşlər, səfərlər və kurslar təşkil edir.

## Yeni layihə başlayıb

Azərbaycan İlahiyyat İnstitutunun yeni layihəsi – "İlahiyyat TV" – fəaliyyətə başlayıb.

Layihənin məqsədi – İslam və digər elmləri özündə ehtiva edəcək proqramlarla dini maarifləndirmə istiqamətində doğru və düzgün məlumatlar vermək, eyni zamanda, sosial-psixoloji və aktual problemləri müzakirə etməkdir.

"İlahiyyat TV" yutub platforması üzərindən İslam elmləri, dünya dinləri, din sosiologiyası, din psixologiyası və fəlsəfəyə aid proqramlar və dərslərin yayımlanmasını nəzərdə tutur.

İlkin olaraq "Müasir dünya və din" və "İslam deyir ki..." proqramlarının, eyni zamanda, Təfsir, Hədis və Ərəb dili (danışıq) dərslərinin çəkilişlərinə başlanılıb.

Qeyd edək ki, Azərbaycan İlahiyyat İnstitutu tədrislə yanaşı, cəmiyyətin dini maariflənməsi istiqamətində bir sıra layihələr həyata keçirir.

# “Əbədiyyət yolu” kitabının təqdimat mərasimi

Azərbaycan İlahiyyat İnstitutu və Mənəvi Dəyərlərin Təbliği Fondunun birgə təşkilatçılığı ilə 2 noyabr 2022-ci il tarixində millət vəkili Məlahət İbrahimqızının “Əbədiyyət yolu” kitabının təqdimat mərasimi keçirilib.

Öncə dövlətimizin ərazi bütövlüyü uğrunda şəhid olanların ruhu birdəqiqəlik ehtiram sükutu ilə yad edilib. Daha sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

AİÍ-nin IV kurs tələbəsi Murad Kərəmov tərəfindən şəhidlərimizin ruhuna Quran tilavəti təqdim edilib.

AİÍ rektoru Aqil Şirinov çıxış edərək mərasim iştirakçılarını salamlayıb. Ali təhsil müəssisəsinin rəhbəri Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan bayrağını işğaldan azad olunan torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş əsgər və zabitlərimizi, bütün şəhidlərimizi dərin ehtiramla yad edib. O qeyd edib ki, Vətənimizin azadlığı uğrunda canından keçmiş hər bir şəhid valideyninin təskinliyi torpaqlarımızın işğaldan azad olunmasıdır.

A.Şirinov millət vəkili Məlahət İbrahimqızının müəllifi olduğu “Əbədiyyət yolu” kitabının nəşr olunmasında əməyi keçən hər kəsə təşəkkürünü bildirib.

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov təmsil etdiyi qurumun maliyyə dəstəyi ilə çap olunan kitabın gənclərimizə milli-mə- nəvi dəyərlərimizin aşılanması istiqamətdə böyük rolu olacağını diqqətə çatdırıb. O bildirib ki, gənclərə milli-mənəvi dəyərlərimizi, milli kimliyimizi, vətənpərvərlik hisslərini aşılamaq üçün şəhid ailələri və qazilərlə tez-tez görüşlər təşkil edilməlidir.

Millət vəkili Məlahət İbrahimqızı çıxış edərək, “Əbədiyyət yolu” kitabı haqqında geniş məlumat verib. Bildirib ki, kitab Azərbaycanın azadlığı, istiqlaliyyəti, çağdaş dövlətimizin müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda həyatından və canından keçmiş qəhrəman şəhidlərimizin xatirəsinə həsr olunub. Kitabda 20 Yanvar, Birinci Qarabağ müharibəsi və 44 günlük Vətən müharibəsi zamanı şücaət və fədakarlıq göstərərək şəhid olmuş Nəsimi rayon sakinləri haqqında məlumatlar toplanmışdır. Əsər şəhidlərimizin ailələri tərəfindən verilən məlumatlar və materiallar əsasında hazırlanmışdır.

Şəhid anaları – Şükran Tarıverdiyeva və Raziyə Qasımlı tədbirdə çıxış edərək, kitabın ərsəyə gəlməsində əməyi keçən hər kəsə təşəkkürlərini bildiriblər.

Azərbaycan İlahiyyat İnstitutunun III kurs tələbəsi Aqşin Məmmədov Vətən və Bayraq mövzularında fikirlərini səsləndirib. Bildirib ki, 44 günlük Vətən müharibəsi gənclərimizdə milli şüur və vətənpərvərlik hisslərini gücləndirib.





Xəzər rayonu Mərdəkan qəsəbəsi Heydər Cümə məscidinin icma sədri Rahim Babayev çıxış edərək, MDTF-nin maliyyə dəstəyi ilə nəşr olunan kitabın təqdimat mərasiminin təşkil edilməsində köməyi olan hər kəsə təşəkkürünü bildirib.

# Milli Arxiv İdarəsinə ekskursiya

Azərbaycan İlahiyyat İnstitutunun tələbələri 14 noyabr 2022-ci il tarixində Azərbaycan Respublikasının Milli Arxiv İdarəsinə ekskursiya ediblər.

Arxiv İdarəsinin nümayəndələri tələbələrə sahə üzrə normativ hüquqi aktların tələblərini, dövlət arxivlərinin əsas iş qaydalarını izah ediblər. Eyni zamanda, sənədlərin mühafizəsi, uçotu, komplektləşdirilməsi, istifadəsi, rəqəmsallaşdırılması və göstərilən elektron xidmətlər haqqında məlumat veriblər. Arxivdə qorunan sənədlər, o cümlədən sənədlərin mühafizəsi qaydası haqqında bəhs edib, sənədlərin saxlanılması şəraitini əyani olaraq nümayiş etdiriblər.



# Zəfər Günü tədbiri

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan İlahiyyat İnstitutu və Mənəvi Dəyərlərin Təbliği Fondunun birgə təşkilatçılığı ilə 4 noyabr 2022-ci il tarixində 8 Noyabr - Zəfər Gününə həsr olunmuş tədbir keçirilib.

Öncə dövlətimizin ərazi bütövlüyü uğrunda şəhid olanların ruhu birdəqiqəlik ehtiram sükutu ilə yad edilib. Daha sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Aİİ rektoru Aqil Şirinov açılış nitqi ilə çıxış edərək, tədbir iştirakçılarını Zəfər Günü münasibətilə təbrik edib. Bildirib ki, 44 günlük Vətən müharibəsində qələbəmizi bizə qazandıran müzəffər Ordumuzun əsgər və zabitləri qarşısında baş əyir, şəhidlərimizə Allahdan rəhmət diləyirik. Ölkəmizin igid oğullarının Ali Baş Komandanın başçılığı ilə qəhrəmancasına döyüşərək, öz qanları bahasına bu qələbəni bizə qazandırdığını vurğulayan rektor qeyd edib ki, Zəfərimizi təmin edən əsas amillərdən biri xalqımızın cənab Prezident İlham Əliyevin ətrafında yumruq kimi birləşməsi oldu.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, Azərbaycan xalqı tarixində çox uğurlara imza atıb: “44 günlük Vətən müharibəsi nəticəsində qazanılan möhtəşəm Zəfərə qədər gələn yola nəzər salsaq, Ulu Öndər Heydər Əliyevin dövlət, ordu quruculuğu istiqamətində apardığı siyasətini və məhz bu siyasətin Prezident cənab İlham Əliyev tərəfindən çox böyük uğurla, dəqiqliklə davam etdirilməsinin nəticəsini görərik”.

**(Ardı 32-ci səhifədə)**







# Zəfər Günü tədbiri

(Əvvəli 31-ci səhifədə)

Komitə sədri vurğulayıb ki, 30 ildən sonra 44 gün davam edən Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusunun möhtəşəm qələbəsinin əsasında Müzəffər Ali Baş Komandan İlham Əliyevin milli maraqları ifadə edən qətiyyətli siyasəti, yüksək şəxsi keyfiyyətləri və təcrübəli idarəetmə bacarığı dayanırdı. Vətən müharibəsində xalqımızın dövlət başçısının həyata keçirdiyi siyasətlə bağlı həmrəylik göstərdiyini qeyd edən Mübariz Qurbanlı vətənpərvər övladlarımızın onun çağırışına qoşularaq birlik, həmrəylik nümayiş etdirdiyini vurğulayıb. O bildirib ki, bu Zəfər Gününə həsr olunmuş tədbiri keçirməyimizə səbəb olan qələbənin əldə edilməsinə görə, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, xüsusilə Azərbaycan əsgərinə, döyüşlərdə öz canını fəda edən şəhidlərimizə və qazilərimizə borcluyuq.

Millət vəkili Ceyhun Məmmədov 44 günlük Vətən müharibəsini tariximizin ən qürurlu, ən şanlı, ən unudulmaz səhifəsi adlandırıb. O bildirib ki, ordumuzun gücü, Ali Baş Komandanın siyasəti və Azərbaycan xalqının birliyi ilə 44 günlük Vətən müharibəsində zəfər qazandıq. Otuz ilə yaxın Azərbaycan xalqının bu günü gözlədiyini vurğulayan millət vəkili bildirib ki, torpaqlarımızı azad edərək bütün dünyaya göstərdik ki, Azərbaycan xalqı müzəffərdir, ermənilərin bütün təbliğatı mifdir. Azərbaycan xalqı göstərdi ki, I Qarabağ müharibəsində ermənilər xarici dəstək hesabına üstünlük qazanıb.

MDTF-nin icraçı direktoru Mehman İsmayılov Ali Baş Komandan möhtərəm cənab İlham Əliyevin rəhbərliyi ilə əldə olunmuş tarixi qələbədən, 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun mənəvi gücündən bəhs edib. M.İsmayılov gənclərin tərbiyə olunmasında milli-mənəvi dəyərlərin rolundan danışıb.

44 günlük Vətən müharibəsi iştirakçısı, baş gizir, kəşfiyyat qrup komandiri İlqar Cahangirov, qazilər Mobil Əhmədzadə və Ayaz Allahverdiyev çıxış ediblər. Onlar Vətən müharibəsi iştirakçısı olaraq qürur hissi duyduqlarını, Ali Baş Komandan, xalq, ordu birliyindən ilhamlanaraq yüksək mübarizlik, vətənpərvərlik ruhu ilə döyüşlərə qatıldıqlarını qeyd ediblər.

Tədbirdə Xüsusi Təyinatlı Qüvvələrin kapitanı, 44 günlük Vətən müharibəsi şəhidi Həmidağa Hüseynzadə haqqında "Bayraq oldum, enmədim!" adlı film təqdim olunub. Sonda şəhidin atası Bağı Hüseynzadə çıxış edərək, oğlunun Vətən uğrunda şəhidlik zirvəsinə ucalmasından qürur hissi duyduğunu bildirib. Şəhid atası gənclərimizi Vətənin hər zaman keşiyində durmağa, vətənpərvər olmağa çağırıb.









# Tələbələr Qəbələ rayonuna səfər ediblər

Azərbaycan İlahiyyat İnstitutunun müəllim-tələbə kollektivi 12 noyabr 2022-ci il tarixində Beynəlxalq Tolerantlıq Günü münasibətilə ənənəvi təşkil olunan Qəbələ rayonunun Nic qəsəbəsinə səfər edib.

İnstitut kollektivi Qəbələ Rayon İcra Hakimiyyətinin məsul işçisi ilə birlikdə şəhərin mərkəzindəki Heydər Əliyev parkına gələrək, Ümummilli Liderin abidəsi önünə gül dəstələri düzüb, dahi rəhbərin xatirəsini ehtiramla yad edib.





Heyət daha sonra Qəbələ Rayon Şəhidlər Xiyabanını ziyarət edərək, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyünün təmin edilməsi uğrunda şəhid olmuş soydaşlarımızın xatirəsini ehtiramla anıb, ruhlarına dualar oxuyub, məzarları üzərinə gül dəstələri düzüb.



Səfər zamanı Qəbələ şəhər məscidi də ziyarət olunub. Məscidin inşasına 2010-cu ilin may ayından başlanıldığı və 2013-cü ilin əvvəlində tikintinin başa çatdırıldığı bildirilib. Məlumat verilib ki, dini ibadət abidəsi Heydər Əliyev Fondunun sifarişi ilə tikilib. Yeni binanın açılışında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev iştirak edib.

AİI kollektivi Qəbələ rayonunun Nic qəsəbəsində yerləşən "Cotari" Alban-Udi Kilsəsində, Müqəddəs Məryəm Ana Kilsəsində və Yalaşlı məhəllə Cümə məscidində də olub. İnstitut heyətinə dünyada yaşayan udilər haqqında geniş məlumat verilib. Bildirilib ki, altı mindən çox əhalisi olan Nic qəsəbəsində hazırda dörd mindən artıq udi yaşayır. Qəsəbədə udilər öz dillərini, dinlərini, adət-ənənələrini minillərdir qoruyub saxlayırlar. Qəsəbədə, həmçinin ibtidai sinif şagirdləri üçün Udi dili tədris olunur.

Ali təhsil müəssisəsinin kollektivinə hər iki kilsə haqqında geniş məlumat verilib. Nəzərə çatdırılıb ki, Müqəddəs Məryəm Ana Kilsəsi Azərbaycanda ən böyük kafedral məbəddir. Alban kilsələrinin tərtibatı çox zaman geniş olmayıb. Müqəddəs Məryəm Ana Kilsəsi 2019-cu ildə Heydər Əliyev Fondu tərəfindən bərpa olunmağa başlanmış və 2020-ci ilin noyabr ayında – 44 günlük müharibə zamanı məbəddə yenidənqurma işləri başa çatdırılmışdır.

# "Stirling" fondunun nümayəndə heyəti AİI-də

"Tolerantlıq – sülh və əməkdaşlığa aparan yol kimi" beynəlxalq konfransın təşkilatçılarından olan ABŞ-nin "Stirling" fondunun nümayəndə heyəti 18 noyabr 2022-ci il tarixində Azərbaycan İlahiyyat İnstitutunu ziyarət edib.

AİI rektoru, dosent Aqil Şirinov qonaqlara ölkəmizdə mövcud olan birgəyaşayış ənənəsi, tolerantlıq mühiti barədə məlumat verib. Rektor Azərbaycanda müxtəlif dinlərin nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşadıqlarını vurğulayaraq, Azərbaycan dövlətinin də ölkədəki ənənəvi dini qruplara daim qayğı ilə yanaşdığını qeyd edib.



Ali təhsil müəssisəsinin rəhbəri AİI haqqında bəhs edərkən bildirib ki, tədris zamanı bütün dinlər haqqında tələbələrə geniş bilgilər verilir. Rektor İnstitut müəllimlərinin öz sahələrinin peşəkar mütəxəssisləri olduqlarını nəzərə çatdırıb.

A.Şirinov ölkəmizdə mövcud olan multikultural mühitin tanıdılmasında görülən işlər barədə danışarkən, burada yaşayan bütün dinlərin nümayəndələri ilə sıx əməkdaşlıq şəraitində çalışıldığını diqqətə çatdırıb. O, Qəbələ rayonunun Nic qəsəbəsində məskunlaşan udilər üçün təşkil olunan "Xristianlıq" kursu barədə də söhbət açıb. Eyni zamanda, Qubada yəhudilərin yaşadıqları Qırmızı qəsəbəni İnstitut tələbələri ilə birlikdə ziyarət etdiklərini vurğulayıb.

Səmimi qəbula və qonaqpərvərliyə görə təşəkkürünü bildirən ABŞ-nin "Stirling" fondunun prezidenti Edvard Rou Yuta ştatında yaşayan etnik azlıqlar barədə söhbət açıb, burada mövcud kilsə və sinaqoqların tarixindən bəhs edib. Bildirib ki, Azərbaycan multikulturalizm və tolerantlıq kimi humanist dəyərləri dünyada təbliğ edir və eyni zamanda, bu amilləri layiqincə tətbiq edir.

Görüş zamanı qonaqları maraqlandıran mövzular ətrafında fikir mübadiləsi aparılıb.

# Konfrans iştirakçıları İnstitutda

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərən Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən Bakı şəhərində din xadimləri üçün "Dini vəhdət – milli birlik" mövzusunda təşkil olunan, üç gün davam edən seminar iştirakçıları 23 noyabr 2022-ci tarixində Azərbaycan İlahiyyat İnstitutunu ziyarət ediblər.

AİI rektoru Aqil Şirinov qonaqları salamlayaraq, ali təhsil müəssisəsinin tədris prosesi, məqsəd və vəzifələri haqqında geniş məlumat verib. O bildirib ki, İnstitutda tələbələrə dini biliklər akademik səviyyədə tədris olunur. Burada dinə təkcə teoloji aspektdən deyil, ictimai, psixoloji və fəlsəfi istiqamətdən də yanaşılır.

Din xadimlərinə dövlət tərəfindən yaradılan şərait barədə ziyarətçilərə danışan İnstitut rəhbəri diqqətə çatdırıb ki, ölkəmizdə tolerantlıq ənənələrinin qorunub saxlanılması və inkişafı, o cümlədən yeni dini ibadətgahların inşası, mövcud olanların əsaslı təmiri və yenidən bərpası istiqamətində çoxsaylı işlər görülür.

A.Şirinov daha sonra ölkəmizdə dinlərarası multikultural mühitin, eyni zamanda, müsəlmanların vəhdətinin əsrlərboyu mövcud olduğunu, bu mühitin qorunub-saxlanılmasının vacibliyini vurğulayıb.

Qonaqlar Azərbaycan İlahiyyat İnstitutunun inzibati binası ilə tanış olublar.



# Əhməd Cavada həsr olunmuş tədbir

Azərbaycan İlahiyyat İnstitutunda 24 noyabr 2022-ci il tarixində Əhməd Cavadın anadan olmasının 130 illiyinə həsr edilmiş tədbir keçirilib.

“İstiqlal şairi – Əhməd Cavad” mövzusunda təşkil olunan tədbirin açılışında Aİİ İlahiyyat fakültəsinin dekanı, dosent Elnurə Əzizova Əhməd Cavadın türk dünyasındakı mövqeyini qeyd edib.

Tədbirin qonağı – AMEA Nizami adına Dilçilik İnstitutunun Mətbuat tarixi və publisistika şöbəsinin müdiri, professor Asif Rüstəmli tələbələrə Əhməd Cavadın həyat və yaradıcılığına dair arxiv mənbələrini, Türkiyə və Azərbaycanda aparılan tədqiqatların nəticələrini təqdim edib.

Tədbirin sonunda tələbələrin sualları cavablandırılıb.



# İnstitut əməkdaşları konfransa qatılıblar



Azərbaycan İlahiyyat İnstitutunun əməkdaşları – dosent Məmmədəli Babaşlı və Şəms Bağırova 24 noyabr 2022-ci il tarixində Tatarıstan Respublikasının Müsəlman Ruhani İdarəsi, Quran və Sünnə Tədqiqatları Mərkəzi və “Rusiya – İslam dünyası” Strateji baxış qrupunun birgə təşkilatçılığı ilə Rusiyanın Kazan şəhərində “Sovet dövrünün sonlarında SSRİ-də İslam və müsəlmanlar” mövzusunda keçirilmiş VIII ümum-Rusiya elmi-dini konfransında iştirak ediblər.

Konfransda M.Babaşlı “Sovet dövründə Azərbaycanda İslam dini”, Ş.Bağırova isə “Sovet dövründən sonra Azərbaycanda ali dini təhsil (Azərbaycan İlahiyyat İnstitutunun nümunəsində)” mövzuları ilə çıxış ediblər. Məruzəçilər sovet dövründə İslam dininin vəziyyətindən bəhs edib, Azərbaycanda hazırda mövcud olan ali dini təhsil, habelə Aİİ-nin tarixi, məqsədləri, təhsil səviyyələri və s. haqqında ətraflı məlumat veriblər.



Səfər çərçivəsində iştirakçılar Kazan şəhərində yerləşən fizikiqüsurlu şəxslər üçün Tədris və Reabilitasiya Mərkəzini, Gözdən Əlillər üçün “Nur” Nəşriyyat Mərkəzini və “İkram” Sosial Yardım Mərkəzindən ibarət “Yardım” kompleks fondunu ziyarət ediblər. Aİİ əməkdaşları mərkəzlərin fəaliyyəti, gözdən əlillər, fizikiqüsurlu şəxslər üçün yaradılmış şəraitlə yaxından tanış olublar.

Ali təhsil müəssisəsinin nümayəndələri daha sonra Kazan şəhərində yerləşən Rus İslam İnstitutunu ziyarət edib, müəssisələrarası əməkdaşlıq əlaqələrinin inkişafı və gələcək perspektivlərinə dair müzakirələr aparıblar.



# Cenevrə Mənəvi Xidmət Dərnəyinin vitse-prezidenti AİI-də

Cenevrə Mənəvi Xidmət Dərnəyinin vitse-prezidenti Ventzeslav Sabev 28 noyabr 2022-ci il tarixdə Azərbaycan İlahiyyat İnstitutunun qonağı olub.

Görüşdə iki müəssisə arasında birgə layihələrin həyata keçirilməsi barədə müzakirələr aparılıb.

AİI rektoru Aqil Şirinov qonağı ali təhsil müəssisəsində görməkdən məmnun olduğunu diqqətə çatdırıb. İnstitut rəhbəri bildirib ki, Cenevrə Universiteti ilə əməkdaşlıq əlaqələrinin genişləndirilərək, hər iki ali təhsil müəssisəsinin fakültə və kafedraları arasında qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan elmi-tədqiqat işlərinin aparılması, birgə layihələrin reallaşdırılması, professor-müəllim heyəti və təhsilalanlar üçün qarşılıqlı akademik səfərlərin həyata keçirilməsi mümkündür.

Cenevrə Mənəvi Xidmət Dərnəyinin vitse-prezidenti Ventzeslav Sabev qarşıda duran məqsəd və hədəflərin həyata keçirilməsində ali təhsil müəssisəsinə köməkliklərini əsirgəməyəcəyini nəzərə çatdırıb.



Görüşdə hər iki tərəf Cenevrə Universitetinin İlahiyyat fakültəsi ilə “Dini plüralizm” mövzusunda “dəyirmi masa”ların keçirilməsi barədə razılığa gəlib.




## Konfrans keçirilib

Azərbaycan Texniki Universitetində 5 dekabr 2022-ci il tarixində “Sağlam evlilik - sağlam ailə, sağlam cəmiyyət, sağlam gələcək deməkdir” mövzusunda konfrans keçirilib. Konfransda Ailə, Qadın və Uşaq Problemləri Üzrə Dövlət Komitəsi, Yasamal rayon Məhkəməsi, Milli Hematologiya və Transfuziologiya Mərkəzi, Azərbaycan İlahiyyat İnstitutunun müəllim və tələbələri iştirak ediblər.

AİI-nin İslamşünaslıq kafedrasının müdiri, dosent Əhməd Niyazov "Milli-mənəvi dəyərlərin əsası kimi ailə dəyərləri" mövzusunda çıxış edib.

## Psixoloqla görüş

Azərbaycan İlahiyyat İnstitutunda 6 dekabr 2022-ci il tarixində psixoloq Süleyman Məmmədzadə ilə tələbələrin görüşü təşkil olunub.

AİI İlahiyyat fakültəsinin dekanı, dosent Elnurə Əzizova tədbirin tələbələr üçün əhəmiyyətli olduğunu diqqətə çatdırıb. O bildirib ki, AİI təhsilin keyfiyyətinə xüsusi önəm verməklə yanaşı, tələbələrin sosial həyatının səmərəli təşkili üçün də səylə çalışır.

Psixoloq Süleyman Məmmədzadə daha sonra qeyd edib ki, görüşün məqsədi gənclərin daxili dünyalarını tanımalarına dəstək olmaq, onların özləri və ətraf mühitlə əlaqələrinə təsir edən başlıca amilləri şərh etmək, şəxsin daxili dünyasında apardığı səssiz söhbətlərin onun istək və motivasiyalarına necə təsir bağışladığını göstərməkdir. Psixoloq gənclərin mənəvi cəhətdən özlərini daha yaxşı tanımaları, daxili potensiallarını üzə çıxarmaları, həmçinin problemi həlletmə bacarıqlarından da bəhs edib.



Tədbir mövzu ətrafında müzakirələrlə davam etdirilib.

# YAP-ın yubileyi münasibətilə tədbir

Azərbaycan İlahiyyat İnstitutunda 5 dekabr 2022-ci il tarixində Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 30 illik yubileyi münasibətilə tədbir keçirilib.

Tədbirdə YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev, Azərbaycan İlahiyyat İnstitutunun rektoru, "M.Naxçıvani küç. 29" (Azərbaycan İlahiyyat İnstitutu) ünvanı üzrə ərazi partiya təşkilatının sədri Aqil Şirinov, ərazi üzrə partiya təşkilatının üzvləri, İnstitutun rəhbər heyəti, əməkdaşları, müəllim və tələbələri iştirak edib.

Tədbirdə öncə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, sonra müasir, müstəqil Azərbaycan dövlətinin banisi ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

İştirakçıları salamlayaraq tədbiri açıq elan edən Azərbaycan İlahiyyat İnstitutunun rektoru, "M.Naxçıvani küç. 29" ünvanı üzrə ərazi partiya təşkilatının sədri Aqil Şirinov Yeni Azərbaycan Partiyasının 30 illik yubileyi münasibətilə təbrikini bildirib. Vurğulayıb ki, ulu öndər Heydər Əliyevin əmanəti olan Yeni Azərbaycan Partiyasını layiqincə qorumalı, ona sahib çıxmalıyıq.



Ali təhsil müəssisəsinin rəhbəri 44 günlük Vətən müharibəsində zəfərimizə diqqət çəkərək bildirib ki, Ulu Öndərin və onun siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuz tarixi torpaqlarımızı azad etdi. A.Şirinov vurğulayıb ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev üç cəbhədə – həm hərbi, həm xarici, həm də informasiya cəbhəsində qalib gəldi. Diqqətə çatdırıb ki, qısa müddətdə güclü ordunun yaradılması, müasir hərbi texnika və silahlarla təmin olunması böyük qələbəyə aparan yolda mühüm amilə çevrildi. Eyni zamanda, cənab Ali Baş Komandanın xarici dövlətlərin televiziya kanallarına verdiyi müsahibələrlə Azərbaycanın haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırması hər iki cəbhədə qalibiyyətimizin təminatçısı oldu.

Aİİ rektoru tələbələrə tövsiyələrini qeyd edərkən bildirib ki, hər birimiz dövlətimizin mənəvi sərhədlərinin qorunmasını təmin etməliyik. Xarici qüvvələrin xalqımızın birliyini, dövlətimizin suverenliyini təhlükə altına atmasına imkan verməməliyik.

Daha sonra çıxış edən YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev bildirib ki, ölkəmizin ictimai-siyasi həyatında aparıcı rol oynayan, yarandığı gündən xalqın partiyasına çevrilən, ulu öndərimiz Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan



Partiyasının yaranmasının 30-cu ildönümünü tarixi bir anlarda - Qarabağımızın 30 ildən sonra 44 gün ərzində Ali Baş Komandanımız, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin diplomatik siyasəti, Müzəffər Ordumuzun, rəşadətli əsgər və zabitlərimizin qəhrəmanlığı sayəsində əldə edilən Qələbə günümüzün ikinci ilinin sevincini yaşadığımız günlərdə qeyd edirik. Məhz bu baxımdan da bu gün Azərbayacanın son illərdə qazandığı böyük nailiyyətlər ulu öndər Heydər Əliyevin yaratdığı və bu gün Prezident İlham Əliyevin sədri olduğu Yeni Azərbaycan Partiyasının fəaliyyəti ilə bilavasitə bağlıdır. Həmçinin, 30 ilə yaxın şərəfli yolda Azərbayacanın qazandığı uğurların bələdçisi kimi çıxış edən Yeni Azərbaycan Partiyası bu gün cəmiyyətimizin avanqardı rolunda çıxış edir. Birliyimizin, həmrəyliyimizin, partiyanın təsis olunmasından ötən 30 ilə yaxın müddətdə toplanmış tarixi təcrübə ilə gənc nəslin dinamizmi arasında vəhdətin yaradılmasının və bu kimi mühüm addımlar Yeni Azərbaycan Partiyasının daim təkmilləşməyə, yeniləşməyə açıq olduğunu bir daha əyani şəkildə sübut edir. B.Nəbiyev çıxışının sonunda Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 30 illik yubileyi münasibətilə partiyamıza üzv olan bütün əməkdaşları təbrik edib.

Sonda Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 30 illik yubileyi münasibəti və ərazi partiya təşkilatında ictimai-siyasi fəaliyyətlərinə görə İnstitut əməkdaşlarına fəxri fərmanlar təqdim olunub.

# NÜMAYƏNDƏ HEYƏTİ İLAHİYYAT İNSTİTUTUNDA

Malayziya Beynəlxalq İslam Universitetinin nümayəndə heyəti 9 dekabr 2022-ci il tarixində Azərbaycan İlahiyyat İnstitutunda olub.

Aİİ-nin Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru, dosent Mübariz Camalov qonaqları İnstitutda görməkdən məmnun olduğunu bildirib. Ali təhsil müəssisəsi haqqında ətraflı bəhs edən M.Camalov ikitərəfli əməkdaşlıq əlaqələrinin inkişafına dair məsələlərə toxunub.

Aİİ İlahiyyat fakültəsinin dekanı, dosent Elnurə Əzizova ixtisaslar, tədris edilən fənlər haqqında bəhs edib. Bildirib ki, İnstitut xarici ölkələrin müvafiq ali təhsil müəssisələri ilə əlaqələrinin gücləndirilməsində, ikitərəfli əməkdaşlıq çərçivəsində birgə layihələrin həyata keçirilməsində, elm və təhsil sahəsində beynəlxalq təcrübənin öyrənilməsində, müəllim və tələbə mübadiləsi proqramlarının reallaşdırılmasında maraqlıdır.

Malayziya Beynəlxalq İslam Universiteti Akademik idarəetmə və qəbul şöbəsinin direktor müavini, iqt.f.d. Məhəmməd İrvan ibn Ariffin və Malayziya Beynəlxalq İslam Universiteti Kommunikasiya və Təbliğat-Təşviqat İşləri üzrə İdarənin direktor köməkçisi Mohd Nizam Abdul Aziz xoş qarşılanmaya görə təşəkkürlərini bildirib, təmsil etdikləri qurum haqqında məlumat veriblər. Bildirilib ki, Malayziya Beynəlxalq İslam Universitetinin müvafiq strukturları da Aİİ ilə imzalanmış protokola uyğun olaraq əlaqələrin qurulması üçün əlindən gələni əsirgəməyəcək.



Görüş tərəflər arasında mümkün ola biləcək proqramların müzakirəsi ilə davam edib.

Daha sonra qonaqlar Aİİ-nin tələbələri ilə görüşüb.

# Rektor Beynəlxalq Forumda iştirak edib

Azərbaycan İlahiyyat İnstitutunun rektoru, dosent Aqil Şirinov 15 dekabr 2022-ci il tarixində "Ədalət və mötədillik: dünya nizamının ilahi prinsipləri" mövzusunda təşkil olunan XVIII Beynəlxalq Müsəlman Forumunda iştirak edib.

İdil bulqarlarının İslam dinini qəbul etmələrinin 1100 illiyi (922-2022) və Məhəmməd peyğəmbərin Məkkədən Mədinəyə hicrətinin 1400 illiyi (622-2022) ilə əlaqədar keçirilən ənənəvi forum Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində baş tutub.

Beynəlxalq forum Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsinin təşkilatçılığı ilə keçirilib.

Forum Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsinin və Rusiya Müftilər Şurasının sədri, müfti Şeyx Ravil Qaynutdinin çıxışı ilə başlayıb. Forumda, həmçinin Türkiyə Cümhuriyyəti Diyanət İşləri başqanı Ali Erbaş, Qafqaz Müsəlmanları İdarəsinin sədri Şüyxülsilam Hacı Allahşükür Paşazadə və başqa ölkələrin dini liderləri də məruzə ilə çıxış ediblər.

Tədbirdə Türkiyə, Rusiya, Qazaxıstan, Özbəkistan, İran, İraq, Misir, Qətər, Küveyt, Hindistan və dünyanın müxtəlif ölkələrini təmsil edən alimlər çıxış ediblər.

Beynəlxalq Forumda Azərbaycan İlahiyyat İnstitutunun rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru, dosent



Aqil Şirinov "Dinlərarası və mədəniyyətlərarası dialoq və tolerantlıq kontekstində İslam mədəniyyətinin dünya sivilizasiyasına töhfəsi" mövzusunda məruzə edib. Rektor vurğulayıb ki, tarixə nəzər saldıqda görürük ki, bir-birlərinə hörmət edən və təcrübələrindən yararlanan mədəniyyətlər hər zaman uğurla inkişaf edib. Daha sonra diqqətə çatdırıb ki, qloballaşan dövrdə dinlərarası və mədəniyyətlərarası dialoqa həmişə ehtiyac olub. Rektor Azərbaycanda mövcud olan birgəyaşayış təcrübəsindən də bəhs edib.

Forum dünyanın müxtəlif universitetlər və təşkilatlarından olan alimlərin çıxışları ilə davam edib.

# ULU ÖNDƏRİN ANIM GÜNÜ TƏDBİRİ

İlahiyyat İnstitutunda 12 dekabr 2022-ci tarixində Heydər Əliyevi Anım Günü ilə əlaqədar tədbir keçirilib.

Öncə AİI kollektivi Fəxri xiyabanda Heydər Əliyevin məzarını ziyarət edib.

Daha sonra tədbirdə ulu öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olanların xatirəsi bir dəqiqəlik ehtiram sükutu ilə yad edilib.

AİI rektoru Aqil Şirinov tədbir iştirakçılarını salamladıqdan sonra, Heydər Əliyevin Azərbaycan tarixində əvəzsiz rolundan bəhs edib. Ulu Öndərin xidmətlərinin nəticəsi olaraq, sütunları möhkəm bir dövlət miras qoyub-getdiyini və Prezident İlham Əliyevin uğurlu siyasətinin nəticəsi olaraq, dövlətimizin daha da inkişaf etdiyini vurğulayıb.

Din sahəsində Ulu Öndərin xüsusi xidmətlərini diqqətə çatdıran rektor dövlət-din münasibətlərinin yüksək səviyyədə olmasının məhz Ümummilli Liderin xidmətləri sayəsində baş verdiyini vurğulayıb.

AİI rektoru tələbələrə tövsiyələrini söyləyərkən bildirib ki, gənclər radikal qüvvələrə qarşı elmlə, biliklə mübarizə aparmalı, milli-mənəvi dəyərlərimizin keşiyində durmalıdırlar.





Daha sonra AİI İslamşünaslıq kafedrasının dosenti Rəşad Mustafa "Azərbaycan tarixində şəxsiyyət faktoru" mövzusunda çıxış edib. Məruzəçi Ulu Öndər Heydər Əliyevin şəxsiyyətinə Azərbaycan dövlətçilik tarixi fonunda nəzər salıb. Heydər Əliyevin və onun uğurlu davamçısı Prezident İlham Əliyevin zəngin dövlətçilik təcrübəsi, möhkəm iradəsi, məqsədyönlü və uzaqgörən siyasəti nəticəsində respublikamızın hərtərəfli və dinamik inkişaf yoluna qədəm qoyduğunu vurğulayıb.



# "MÜASİR ÇAĞIRIŞLAR KONTEKSTİNDƏ MDB ÖLKƏLƏRİNDƏ

Azərbaycan İlahiyyat İnstitutu və "İdrak" İctimai Birliyinin birgə təşkil etdikləri "Müasir çağırışlar kontekstində MDB ölkələrində islamşünaslıq" mövzusunda Beynəlxalq Forum 20 dekabr 2022-ci il tarixində öz işinə başlayıb.

Tədbirdə ərazi bütövlüyümüzün qorunması uğrunda şəhid olanların ruhu birdəqiqəlik ehtiram sükutu ilə yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Daha sonra torpaqlarımızın qorunması uğrunda şəhid olanların ruhlarına hörmət əlaməti olaraq, Aİİ-nin tələbəsi Əmrah Eminovun təqdimatında Quran tilavəti təqdim edilib.

Aİİ rektoru, dosent Aqil Şirinov açılış nitqi ilə çıxış edərək vurğulayıb ki, Forumun işində MDB dövlətlərindən və dünyanın bir çox ölkəsindən islamşünaslıq sahəsində tanınmış tədqiqatçılar iştirak edirlər. Forumun məhz Azərbaycanda keçirilməsinin təsadüfi olmadığını vurğulayan rektor qeyd edib ki, Azərbaycan MDB məkanında İslamı qəbul edən ilk ölkə olub. O, həmçinin qeyd edib ki, müstəqil Azərbaycanda islamşünaslığa dövlət səviyyəsində önəm verilir. A.Şirinov Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasını və bu sahənin ayrıca bir ixtisas kimi tədris olunmasını deyilənlərə nümunə olaraq göstərib.

Aİİ rektoru Forumun əsas məqsədlərindən birinin dünyanın bir çox ölkəsindən olan tədqiqatçıların islamşünaslıq sahəsindəki araşdırmaları ilə tanışlıq olduğunu nəzərə çatdırıb. Həmçinin tədbirin alimlər arasında yeni əməkdaşlıqların qurulması və qarşılıqlı fikir mübadiləsi baxımından sözügedən sahədəki gələcək tədqiqatlara stimul verəcəyini vurğulayıb.

"İdrak" İctimai Birliyinin sədri Rüfət Quliyev "Müasir çağırışlar kontekstində MDB ölkələrində islamşünaslıq" mövzusunda keçirilən Beynəlxalq Forumun işinə uğurlar arzulayıb. Bildirib ki, birgə təşkil



edilən bu Forumun qeyd olunan məqsədlərə çatacağına ümidlər böyükdür.



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov bildirib ki, dünya miqyasında dini ayrı-seçkiliyin qabardıldığı, dinin siyasiləşdirildiyi və ya siyasi maraqların həyata keçirilməsində alətə çevrildiyi, bilərəkdən dini zəmində qarşıdurmalara rəvac verildiyi müasir dövrdə qlobal sülh və təhlükəsizlik naminə dinlər arasında harmo-



niya, dialoq və əməkdaşlığa nail olunması, o cümlədən dini dözümlülüyün, tolerantlığın hakim mövqe tutması prioritet məsələyə çevrilib.



Sədr müavini çıxışında multikultural və tolerant dəyərləri öz siyasətinin tərkib hissəsinə çevirmiş Azərbaycan dövlətinin bütün vətəndaşlarına öz inanclarını yaşamaq üçün lazımi şərait yaratdığını və bunun hər sahədə hiss olunduğunu diqqətə çatdırıb: "Ulu Öndə-

# İSLAMŞÜNASLIQ" MÖVZUSUNDA BEYNƏLXALQ FORUM





rin təməlini qoyduğu bu yolu uğurla davam etdirən dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi altında müasir Azərbaycan artıq bütün dünyada təkcə sosial-iqtisadi göstəricilərinə görə deyil, həm də dinlər və sivilizasiyalararası dialoqun qurulduğu mərkəzlərdən biri kimi tanınır.

Millət vəkili, i.f.d. Ceyhun Məmmədov Azərbaycanda mövcud dövlət-din münasibətlərinə toxunub. Bildirib ki, hazırda ölkəmizdə həyatın bütün sahələrində





dərin, rasional və praqmatik islahatlar uğurla həyata keçirilir. Millət vəkili İslam dininin Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin formalaşmasında çox böyük rol oynadığını vurğulayıb. Forumun işinə uğurlar arzulayan C.Məmmədov tədbirin mövzu və istiqamətlər baxımından zəngin olduğunu, islamşünaslıq elminin tədqiqinə öz töhfəsini verəcəyini bildirib.

Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsi sədrinin birinci müavini, Moskva İslam İnstitutunun rektoru, professor Damir Muxetdinov İslam dininin yayılma tarixi, mövcud durumu barədə bəhs edərək, hazırda Rusiyada yaşayan müsəlmanların sayı, məskunlaşdıqları ərazi barədə fikirlərini bölüşüb. İslamın Rusiya mədəniyyətinin əhəmiyyətli bir parçasına çevrildiyini, həmçinin müsəlman cəmiyyətinin ölkənin çoxmillətli əhalisinin vacib tərkib hissəsi olduğunu nəzərə çatdırıb. O, MDB ölkələrində İslam elmlərinin tədqiqi və tədrisi məsələlərinə də toxunub.

Gürcüstan Parlamentinin deputatı Tariel Nakaidze bildirib ki, müsəlmanlar yüksək savada malik, tolerant, mədəni insanlar kimi tanınmalı, öz həyat və fəaliyyətləri ilə İslamın əsl mahiyyətini nümayiş etdirməlidirlər. Qeyd edib ki, Gürcüstan cəmiyyətində İslamın sülhsevər və tolerant mahiyyətinin təbliği davam edir. Millətlərarası və dinlərarası sülhün və əmin-amanlığın möhkəmləndirilməsi üçün mümkün olan bütün addımlar atılır.

Ümumdünya Fətva Evləri və Heyətləri Baş Katibliyinin müşaviri fil.e.d. Seymur Nəsirov Misirdə ölkəmizin tanıdılması istiqamətində görülən işlər, ərəb dilli mənbələrdə Azərbaycan alimləri haqqında tədqiqatların aparılması barədə fikirlərini bölüşüb. Forumun mövzu istiqamətlərinin zənginliyinə diqqət çəkən məruzəçi tədbirə işində uğurlar arzulayıb.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov və Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru, i.f.d. Mehman İsmayılov müasir dünyada terrorizmi və insana qarşı nifrətin istənilən formasını rədd edən İslamın mahiyyətini cəmiyyətə düzgün çatdırmağın çox önəmli olduğunu vurğulayıb. Fondun icraçı direktoru Forumun işinə uğurlar arzulayıb.

(Ardı 42 və 43-cü səhifələrdə)

# "MÜASİR ÇAĞIRIŞLAR KONTEKSTİNDƏ MDB ÖLKƏLƏRİNDƏ



(Əvvəli 40 və 41-ci səhifələrdə)

Forumun keçirilməsində məqsəd MDB ölkələrində islamşünaslıq istiqamətində mövcud vəziyyəti müzakirə etmək, bu sahənin aktual problemlərinin tədqiqinə marağı artırmaq, həmçinin tədqiqatçılar arasında qarşılıqlı elmi əməkdaşlığı təşviq etməkdir.

Qeyd edək ki, "Müasir çağırışlar kontekstində MDB ölkələrində islamşünaslıq" mövzusunda Beynəlxalq Forum panellərlə davam edib.

Aİİ Dillər və ictimai fənlər kafedrasının müdiri, dosent İlkin Əlimuradovun moderatorluğu ilə baş tutan paneldə "Kazan tatarları arasında Quran təfsiri və tərcüməsi ənənəsi", "Quranın rus dilinə müasir sərbəst tərcüməsinin tənqidi təhlili", "İmam Termezi Beynəlxalq Elmi-Tədqiqat Mərkəzi təşəkkül prosesində" və "Şərqşünaslıq və müasir islamşünaslıq (tematik təhlil)" mövzularında məruzələr dinlənilib.




Aİİ İlahiyyat fakültəsinin dekanı, dos. Elnurə Əzizovanın moderatorluğu ilə baş tutan paneldə "Gürcüstanda islamşünaslıq", "Azərbaycanda SSRİ dövründə dinşünaslığın inkişafına mane olan amillər", "Sovet və postsovet dövrü Özbəkistanında ilahiyyat təhsilinin institusionallaş-



# İSLAMŞÜNASLIQ” MÖVZUSUNDA BEYNƏLXALQ FORUM

dırılması: Daşkənd İslam İnstitutunun mədəniyyətlərarası təhsil, vətəndaş şüurunun formalaşdırılması və mənəvi dəyərlərin tərbiyəsinə töhfəsi” və “XX əsrin birinci qərinəsində Azərbaycanın Zaqatala bölgəsində İslam dini düşüncəsinin təmsilçiləri” mövzularında tədqiqatçıların çıxışları dinlənilib.

***

“Müasir çağırışlar kontekstində MDB ölkələrində islamşünaslıq” mövzusunda Beynəlxalq Forum 21 dekabr 2022-ci il tarixində öz işini davam etdirib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərən Azərbaycan İlahiyyat İnstitutu və “İdrak” İctimai Birliyinin birgə təşkil etdikləri “Müasir çağırışlar kontekstində MDB ölkələrində islamşünaslıq” mövzusunda Beynəlxalq Forum öz işini uğurla yekunlaşdırıb.

Bağlanış nitqi ilə çıxış edən Aİİ rektoru Aqil Şirinov ikigünlük Forumun önəmli mövzuya həsr olunduğunu qeyd edərək, tədbirin işinə qatılan elm adamlarına təşəkkürünü bildirib. O, qeyd edib ki, Forumun əsas mövzusu və istiqamətlərini özündə ehtiva edən məruzələr – MDB dövlətlərindən və dünyanın bir çox ölkəsindən islamşünaslıq sahəsində tanınmış tədqiqatçı alimlərin çıxışları gələcəkdə kitab şəklində çap olunacaq.

A.Şirinov İslam dünyasında elmin inkişafı, MDB ölkələrində İslamşünaslığın mövcud vəziyyəti və onun inkişaf perspektivləri barədə də söhbət açıb.

Sovet dövründə ölkəmizdə din siyasəti haqqında danışan Aİİ rektoru müasir Azərbaycanda Ulu Öndər Heydər Əliyevin dövlət-din münasibətləri sahəsində həyata keçirdiyi siyasi kursun hazırda Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb. A.Şirinov vurğulayıb ki, ölkəmiz dünyada dinlərarası dialoqun və tolerant dəyərlərin mövcud olduğu məkan kimi tanınır.

“İdrak” İctimai Birliyinin sədri cənab Rüfət Quliyev bağlanış mərasimində çıxış edərək, tədbirin təşkilində əməyi keçənlərə təşəkkürünü bildirib. Qeyd edib ki, “Müasir çağırışlar kontekstində MDB ölkələrində islamşünaslıq” mövzusunda baş tutan Beynəlxalq Forum müxtəlif millətlərə məxsus olan alimlərlə tanış olmağımıza fürsət yaratdı.

Gürcüstan Parlamentinin deputatı Tariel Nakaidze Forum təşkilatçılarına təşəkkürünü bildirib. O, tədbirdə dinlənilən məruzələrin hər birini yüksək qiymətləndirib. Qeyd edib ki, “Müasir çağırışlar kontekstində MDB ölkələrində islamşünaslıq” mövzusunun müxtəlif aspektlərdən araşdırıldığının şahidi olduq.

Tədbirin sonunda qonaqlara hədiyyələr təqdim olunub.



## Damir Muxetdinov Aİİ-ni ziyarət edib

Rusiya Federasiyası Müsəlman Ruhani İdarəsi sədrinin birinci müavini, Moskva İslam İnstitutunun rektoru, professor Damir Muxetdinov 22 dekabr 2022-ci il tarixində Azərbaycan İlahiyyat İnstitutunu ziyarət edib.

Aİİ rektoru, dosent Aqil Şirinov D.Muxetdinovu salamlayaraq, qonağı ali təhsil müəssisəsində görməkdən məmnun olduğunu bildirib. Daha sonra İnstitutun hazırkı fəaliyyəti, tədris prosesi, təhsilalanlar barədə geniş məlumat verib.

A.Şirinov imzalanan əməkdaşlıq memorandumu çərçivəsində həyata keçirilə biləcək layihələr barədə danışıb, təkliflərini səsləndirib.

Daha sonra Rusiya Federasiyasının Müsəlman Ruhani İdarəsi sədrinin birinci müavini, Moskva İslam İnstitutunun rektoru, professor Damir Muxetdinov Mİİ-də aparılan elmi tədqiqatlar haqqında geniş məlumat verib. O, əməkdaşlıq memorandumu çərçivəsində tələbə mübadiləsi, bir sıra digər layihələrin həyata keçirilməsinin mümkünlüyünü ifadə edib.

Görüşdən sonra "Müasir İslam düşüncəsi" mövzusunda seminar təşkil olunub. Aİİ əməkdaşları və tələbələrinin iştirakı ilə baş tutan tədbirdə Mİİ rektoru Damir Muxetdinov və Aİİ rektoru Aqil Şirinov çıxış ediblər.

Seminarda Allahın varlığı, fərqli Tanrı təsəvvürləri, İslam düşüncəsində müxtəlif məktəblərin rolu, radikallaşma və digər mövzular haqqında bəhs olunub.







## "Fiqh üsulu" dərsliyi nəşr olunub

Azərbaycan İlahiyyat İnstitutunun prorektoru, dosent Mübariz Camalovun "Fiqh üsulu" dərsliyi nəşr olunub.

Dərslik Ön söz, Giriş, Dəlillər, Hökmlər, Mənbələrdən hökm çıxarmaq metodları, İctihad və təqlid bölmələrindən ibarətdir.

Müəllif "Ön söz"də bildirib ki, kitabın hazırlanmasında əsas məqsəd həm bu sahədəki mənbə çatışmazlığına töhfə vermək, həm də Azərbaycan İlahiyyat İnstitutunun tədris siyasətinə uyğun olaraq, islami elmlərə məzhəblərüstü təhsil çərçivəsində yanaşmamızı təqdim etməkdir. Buna uyğun olaraq, dərslikdə təsviredici metodla mövcud məzhəblərin fiqh üsulu anlayışları müqayisəli şəkildə təqdim edilib.

Məlumat üçün bildirək ki, Azərbaycan İlahiyyat İnstitutu kitab və dərsliklərin nəşri ilə bağlı bir sıra layihələr həyata keçirir. "İlahiyyat nəşrləri" adı altında layihəyə müəllimlərimizin və bu sahədə çalışan mütəxəssislərin kitablarının müxtəlif dillərdən tərcümə olunan əsərlərinin nəşri daxildir. Eyni zamanda, İnstitutun qarşısına qoyduğu məqsədlərdən biri də ilahiyyat sahəsindəki problemləri araşdırmaq, beynəlxalq standartlara cavab verən tədqiqatlar aparmaq və onları nəşr etdirməkdir.



# TƏRƏFDAŞLIQ MEMORANDUMU İMZALANIB



Türkdilli dövlətlərin ilk ortaq media platforması olan "Türk Dünyası" (Turkic.World) və Azərbaycan İlahiyyat İnstitutu 26 dekabr 2022-ci il tarixində tərəfdaşlıq memorandumu imzalayıb.

Memorandum Trend Beynəlxalq İnformasiya Agentliyinin direktor müavini Rufiz Hafizoğlu və Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov arasında imzalanıb.

Memoranduma əsasən, "Turkic.World" media layihəsi Azərbaycan İlahiyyat İnstitutunun rəsmi media tərəfdaşı olub.

İmzalanan memorandum çərçivəsində "Turkic.World" media platformasında İnstitutla bağlı xəbərlər dərc olunacaq, bununla yanaşı, media layihəsində İnstitutun professor və müəllim heyəti ekspert və şərhçi qismində çıxış edəcəklər.

Qeyd edək ki, "Türk Dünyası" (Turkic.World) media platforması 2021-ci ildə Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin dəstəyi ilə, Trend BİA və Türkiyənin "Albayrak" Media Qrupunun əməkdaşlığı nəticəsində fəaliyyətə başlayıb.



## Aİİ-də görüş



Ümumdünya Fətva Evləri və Heyətləri Baş Katibliyinin müşaviri Seymur Nəsirov 26 dekabr 2022-ci il tarixdə Azərbaycan İlahiyyat İnstitutunu ziyarət edib.

Aİİ rektoru Aqil Şirinov qonağı İnstitutda görməkdən məmnun olduğunu qeyd edib. Aqil Şirinov qonağa ali təhsil müəssisəsinin fəaliyyəti və hədəfləri, burada tədris olunan ixtisaslar barədə məlumat verib. Aİİ-nin xarici ölkə universitetləri ilə əməkdaşlıq əlaqələrinin qurulmasında maraqlı olduğunu vurğulayan A.Şirinov diqqətə çatdırıb ki, dünyanın bir çox tanınmış ali təhsil müəssisələri ilə ikitərəfli protokollar, memorandumlar imzalanıb.

Müşavir Seymur Nəsirov ali təhsil müəssisəsinin rəhbərinə səmimi qarşılanmaya görə təşəkkürünü bildirib. S.Nəsirov Aİİ-nin fəaliyyətinə uğurlar arzulayaraq, bu ali təhsil müəssisəsi ilə Misir universitetləri arasında əməkdaşlıq əlaqələrinin qurulması üçün əlindən gələni edəcəyini bildirib.

Görüş birgə əməkdaşlıq münasibətlərinin inkişaf perspektivləri, qarşılıqlı maraq doğuran digər məsələlərin müzakirəsi ilə davam edib.

# İLİN YEKUNLARINA HƏSR OLUNMUŞ TƏDBİR

Azərbaycan İlahiyyat İnstitutunda 29 dekabr 2022-ci il tarixdə rəhbərlik, müəllim və əməkdaşların iştirakı ilə ilin yekunlarına həsr olunmuş tədbir keçirilib.



Aİİ rektoru Aqil Şirinov tədbir iştirakçılarını salamlayaraq, 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və qarşıdan gələn yeni təqvim ili münasibətilə səmimi arzularını ifadə edib.

Daha sonra rektor Aqil Şirinov 2022-ci ildə görülən işlər və qarşıda duran hədəflər, vəzifələr haqqında söhbət açıb. İnstitutda təşkil edilən ərəb dili, ingilis dili kurslarından söhbət açan A.Şirinov tələbələrimizin bilik səviyyələrinin artırılması, elmi potensiallarının yüksəldilməsi üçün peşə hazırlığı kurslarının əhəmiyyətini vurğulayıb.

Aİİ-nin qarşıda duran hədəf və vəzifələri haqqında danışan rektor qeyd edib ki, 2023-cü il "Heydər Əliyev İli" çərçivəsində ilboyu elmi konfranslar, seminarlar, "dəyirmi masa", təlimlər, esse yarışmaları, intellektual müsabiqələrin keçirilməsi nəzərdə tutulub.

Dərslik və kitabların nəşr edilməsi məsələsinə toxunan A.Şirinov İnstitut müəllimlərin elmi-tədqiqat işlərinin nüfuzlu beynəlxalq jurnallarda dərc edilməsinin vacibliyinə diqqət çəkib.

Aİİ-nin Elm və innovasiyalar üzrə prorektoru Mirniyaz Mürsəlov Magistratura və doktorantura şöbəsi, mətbuat və beynəlxalq əlaqələr şöbələrinin il ərzində gördüyü işlər, qarşıda duran hədəflər barədə geniş məlumat verib.




M.Mürsəlov bildirib ki, İnstitutun müvafiq strukturları tərəfindən ali təhsil müəssisəsinə yüksəkintellektli və savadlı gənclərin cəlb olunmaları məqsədilə regionlara maarifləndirici səfərlər və görüşlər təşkili edilir, o cümlədən ali təhsil müəssisəsinin sosial şəbəkələrində bu istiqamətdə reklam işi aparılır.

Aİİ-də fəaliyyətə yeni başlamış "İlahiyyat TV" yutub kanalı barədə məlumat verən M.Mürsəlov hazırda İslam və digər elmləri özündə ehtiva edən proqramlarla dini maarifləndirmə istiqamətində doğru və düzgün məlumatların verilməsi, sosial-psixoloji və aktual problemləri özündə cəmləyən verilişlərin hazırlanması və yayımlanmasının həyata keçirildiyini də vurğulayıb.

İnstitutun beynəlxalq əlaqələri barədə danışan Aİİ prorektoru daha sonra xarici ali təhsil müəssisələri ilə əməkdaşlıq çərçivəsində "Erasmus+" və "Mövlana" tələbə mübadilə proqramları haqqında məlumat verib.

Aİİ İlahiyyat fakültəsinin dekanı Elnurə Əzizova imtahanlara hazırlıq prosesi haqqında danışıb. Bildirib ki, ali təhsil müəssisəsində qış imtahan sessiyasında bakalavr pilləsində 24 qrup üzrə 50 fəndən, magistratura pilləsində 6 qrup üzrə 29 fəndən imtahan keçiriləcək.

E.Əzizova tələbələrin elmi potensiallarının artırılması, asudə vaxtlarının təşkili istiqamətində təşkil edilən kurslar barədə söhbət açıb. O, ebru sənəti kurslarında aktiv iştirak edən tələbələrin rəsmlərindən ibarət sərginin təşkilnin nəzərdə tutulduğunu diqqətə çatdırıb. Təhsilalanların ölkədaxili və xaricdə müxtəlif yarışlarda fəal iştirak etdiyini bildirən E.Əzizova bu il tələbəmiz Murad Kərimovun Səudiyyə Ərəbistanı Krallığında təşkil edilən beynəlxalq Quran yarışmasında iştirakına diqqət çəkib.

Tədbir qarşıda duran məqsəd, hədəf və vəzifələrin müzakirəsi ilə davam edib. İclas iştirakçıları öz təkliflərini səsləndiriblər.

# Beynəlxalq Ərəb Dili Günü münasibətilə tədbir

Azərbaycan İlahiyyat İnstitutunda 18 dekabr – Beynəlxalq Ərəb Dili Gününə həsr olunmuş tədbir təşkil edilib.

Tədbir İnstitutun IV tədris ilində təhsil alan tələbə Murad Kərəmovun təqdimatında Qurani-Kərimdən ayələrin oxunması ilə başlayıb.

Açılış nitqi ilə çıxış edən İnstitutun rektoru, dosent Aqil Şirinov tədbir iştirakçılarını salamladıqdan sonra, ərəb dilinin əhəmiyyətindən, onun müqəddəs Qurani-Kərimin dili olmasından, habelə İslam sivilizasiyasının hakim dili olmasından danışıb. O, qeyd edib ki, söz ehtiyatına görə, dünyanın ən zəngin dillərindən hesab edilən ərəb dili digər dillərə də öz təsirini göstərib. Orta əsrlərdə başqa dillərdən də ərəb dilinə xeyli kitab tərcümə edilmiş və bununla da ərəb dili daha da zənginləşmişdir. A.Şirinov ərəb dilini bilmədən "Dinşünaslıq" və "İslamşünaslıq" ixtisaslarında dərin bilik əldə etməyin, islami irsimizin dərin köklərini araşdırmağın mümkün olmadığını bildirib.



Tədbirin moderatoru, İnstitutun Dillər və ictimai fənlər kafedrasının müdiri, dosent İlkin Əlimuradov bildirib ki, Azərbaycan İlahiyyat İnstitutu təsis edildikdən sonra fasiləsiz olaraq, hər il Beynəlxalq Ərəb Dili Gününü müxtəlif formatlarda qeyd edib. O, keçirilən tədbirlər haqqında geniş məlumat verərək bildirib ki, ötən dövr ərzində "Ərəb dili elmin, dinin və mədəniyyətin dilidir" mövzusunda beynəlxalq elmi konfrans, "Ərəb dili ilahi mənanın ifadəsi kimi" adlı seminar və digər müzakirələr təşkil edilib.

Sonda ali təhsil müəssisəsində ərəb dili ilə bağlı fəaliyyəti özündə əks etdirən film nümayiş olunub.



Azərbaycan İlahiyyat İnstitutu
# Bülleten
№ 6
iyul-dekabr
2022






















**Təsisçi:**
Azərbaycan
İlahiyyat İnstitutu

**Baş redaktor:**
Aqil Şirinov

**Redaksiya şurası:**
Mirniyaz Mürsəlov
Ayşən Aslanova
Elnarə Ağaoğlu
Rəna Həsrətova

**Məsul redaktor:**
Elnarə Ağaoğlu

**Texniki redaktor:**
Hilal Ağamoğlanov

**Foto:**
Ayaz Mikayıl-zadə

**Ünvan:**
Məhəmməd Naxçıvani, 29

**Əlaqə nömrəsi:**
(+994) 12 436 77 66

Tiraj: 500

**AVE Print MMC-də**
çap olunub

ait.edu.az
bulleten@ait.edu.az
ilahiyyatinstitutu
ilahiyyatinstitutu